RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 59 (9804) 18 mart 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Təyyarə qəzasına obyektiv qiymət veriləcək



Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

2

## Azərbaycan ilə Bosniya və Herseqovina arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi önəmlidir



Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavinini qəbul edib

2

## Mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federal Məclisi Federasiya Şurasının sədri ilə görüşüb

2



# ERMƏNİ YALANLARININ ANATOMİYASI

**44 günlük Zəfər müharibəsində dünyanın ədalət tərəzisinin Cənubi Qafqazda əyilən pərsəngi düzəldi!**

**Bunu Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə etdi!**

Ermənistan ordusunu məhv edərək qarşısında diz çökdürdü!

Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi və 30 ilədək havada qalan 4 qətnaməsini ordumuzun gücü ilə yerinə yetirdi!

ATƏT-in Minsk qrupunun sülh danışıqları imitasiyası ilə işğalı əbədiləşdirmək niyyətinə son qoydu!

Bütün təsir, təzyiq, hətta hədələrə əhəmiyyət verməyərək sonadək məqsədə doğru getdi:

* Ərazi bütövlüyümüzü bərpa etdi!

* Dövlət suverenliyini və Konstitusiya əsaslarını təmin etdi!

* Rusiya sülhməramlılarını musiqi ilə, mehribanlıqla yola saldı!

**Artıq Azərbaycan arxalı düşməninə qalib gəlmiş müzəffər dövlətdir!**

*Azərbaycan ərazisində bircə nəfər belə "fəal separatçı" olmayan dövlətdir!*

Artıq Azərbaycanın ərazisində bir nəfər belə əcnəbi əsgər, hərbi baza yoxdur!

**Azərbaycan qürurlu, məğrur dövlətdir!**

**Azərbaycan həm də hesab soran dövlətdir!**

Bu gün Azərbaycan torpaqlarının işğalında, ərazilərimizin dağıdılmasında, yağmalanmasında, soyqırımları törədilməsində, terrorçu dəstələrin yaradılmasında və insanlarımıza qarşı terror əməllərinin törədilməsində təqsiri olanlardan ədalət məhkəməsi qarşısında cavab tələb edildiyi bir ölkədir!

Bir vaxtlar erməni işğalına dəstək verənlərin, işğalın əbədiliyə çevrilməsinə can atanların yeni oyunbazlıqlarının şahidinə çevrilirik.

Müttəhimlər kürsüsündə əyləşənlərə dayaq durmaq, onları məsuliyyətdən yayındırmaq üçün yeni yalanlar uyduranlar, hiyləgər vasitələrlə onlara qahmar çıxanlar da var.

Amma Azərbaycan 44 günlük Zəfər müharibəsində olduğu kimi, ədalət mühakiməsində də qətiyyətli, inamlı və heç bir təsir, təzyiq cəhdindən çəkinməzdir!

Hər şey Femida tərəzisində çəkilərək obyektiv qiymətini alacaqdır!

❖ ❖ ❖

*Təkcə hərbi cəhətdən deyil, hüquqi, mənəvi, insani cəhətdən də sarsıdıcı məğlubiyyətə uğradılan haylar yenə də əsas silahlarından - yalan, hiylə və riyakarlıqlarından əl çəkmirlər.*

**Erməni yalanlarının tarixi isə çox qədimdir.**

Nə qədər ifşa olunsalar da, yenə həyasızlıqlarından, öz adlarını özgələrinə qoymaqdan əl çəkmirlər!

Maskalanmağı, baş verənləri başqa cür təqdim etməyi də məharətlə bacarırlar.

*Ən tutarlı "fakt"ları guya 1915-ci ildə baş vermiş "erməni soyqırımı"dır.*

4

## İlham Əliyevdən Ermənistana barış çağırışı

### Prezident bir daha bəyan etdi ki, sülh sazişi imzalanana qədər regionda sabitlik olmayacaq

Ermənistanla Azərbaycan arasında imzalanması gözlənilən sülh sazişinə gəlincə isə, İlham Əliyev qalib komandan kimi reallıqları açıqlayıb. "Müharibə yalnız sülh sazişi imzalananda bitir", - deyən dövlət başçısı qeyd edib ki, hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, Ermənistanla sülh müqaviləsi yoxdur.

Düzdür, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Göründüyü kimi, qalib tərəf olmasına baxmayaraq, Azərbaycan Prezidenti yenə də humanizm prinsiplərini əsas tutaraq Ermənistanı sülh sazişini imzalamağa dəvət edir.

7

## Qarabağda bayram havası

### Artıq Novruz tonqalları bütün Azərbaycanda qalanır

Ötən ilin martında müzəffər lider İlham Əliyev tərəfindən Xankəndidə bütöv, abad, firavan zəfər ölkəsi Azərbaycanın rəmzi olan Novruz tonqalı alovlandırıldı. Həmin vaxt Prezident İlham Əliyev uğurla keçirilmiş antiterror tədbirlərinin beynəlxalq hüququn, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunu söylədi: "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

5

# Təyyarə qəzasına obyektiv qiymət veriləcək

## Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əlaqələr, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Valentina Matviyenko Bakı-Qroznı istiqaməti üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığını çatdıraraq, bu məsələnin Rusiyanın istintaq orqanları tərəfindən araşdırıldığını və ona obyektiv qiymət veriləcəyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında parlamentlərarası təmasların davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə Bosniya və Herseqovina arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi önəmlidir

## Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin Müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulandı.

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin əhəmiyyətini qeyd etdi.

Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırdı və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını dedi.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd etdi və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğuladı.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıldı.

# Mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federal Məclisi Federasiya Şurasının sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 16-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Valentina Matviyenkonu salamlayaraq, onun ölkəmizə səfərinin ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri qəbula və qonaqpərvərliyə görə Birinci vitse-prezidentə təşəkkürünü bildirdi.

Qonaq ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı. Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib





**Martın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2024-cü il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mükəmməl səviyyədə, bütün əhəmiyyətli aspektlər baxımından mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb.

Sonra 2024-cü il üzrə maliyyə hesabatı müzakirə olunaraq İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bütün ərazisində tam suverenliyini təmin edərək növbəti inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanın 2024-cü ildə mühüm uğurlara imza atdığını və yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda duran milli məqsədlərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü söyləyib və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetiriləcəyinə əmin olduğunu bildirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin "Konstitusiya və Suverenlik İli"ndə də ardıcıl nailiyyətlərə imza atacağına inamını ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

# Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri xanım Qordana Silyanovska-Davkovaya

Hörmətli xanım Prezident!

Koçani şəhərində baş vermiş faciəli hadisə nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Şimali Makedoniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2025-ci il*

# X.R.Vəliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Xanlar Rüstəm oğlu Vəliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2025-ci il*

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətində (bundan sonra - Cəmiyyət) ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

1.1. Azərbaycan Respublikasının Prezidentinə:

1.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

1.1.2. Cəmiyyətin icra orqanının yaradılması;

1.1.3. Cəmiyyətin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

1.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

1.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

1.2.2. Cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsi;

1.2.3. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

1.2.4. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

1.2.5. bu Fərmanın 1.1-ci və 1.3-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

1.3.1. Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

1.3.2. Cəmiyyətin digər hüquqi şəxslərə kapital qoyuluşu barədə qərarların qəbul edilməsinə razılıq verilməsi;

1.3.3. Cəmiyyətin iştirak etdiyi birgə layihələrə əmlak və (və ya) pul şəklində pay qoyulmasına razılıq verilməsi.

2. Müəyyən edilsin ki, Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirmək üçün 3 (üç) üzvdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədri və onun iki müavinindən ibarət İdarə Heyəti yaradılır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Cəmiyyətin nizamnaməsini və strukturunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

3.2. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2025-ci il*

# Fələstinin Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik fəaliyyəti başa çatıb

**Martın 17-də xarici işlər naziri Ceyhun Bayramov Fələstin Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nəssir Əbdülkərim Əbdürrəhimlə ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov ölkəmizdə səmərəli diplomatik fəaliyyətinə, Azərbaycan-Fələstin münasibətlərinə verdiyi töhfəyə görə səfir Nəssir Əbdülkərimə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Nazir səfirin ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbriklərini çatdırıb və ordeni ona təqdim edib.



Görüşdə Azərbaycan ilə Fələstin arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran mövzular, habelə regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında siyasi, mədəni, humanitar və digər istiqamətlər üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin mövcudluğu, regional, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək məmnunluqla qeyd olunub.

Azərbaycanın Fələstin məsələsinin beynəlxalq hüququn normaları, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən "iki dövlət həlli"nin tərəfdarı olduğunu hər zaman dəstəklədiyi, bu istiqamətdə əməli addımlar atdığı diqqətə çatdırılıb.

Söhbət zamanı həmçinin Qəzzada olduqca çətin humanitar vəziyyətin həllinin, atəşkəsə əməl olunmasının əhəmiyyəti qeyd olunub.

Səfir Nəssir Əbdülkərim 14 ilə yaxın müddətdə Fələstinin dost Azərbaycanda səfiri kimi fəaliyyətini hər zaman qürurla xatırlayacağını vurğulayaraq, Prezident tərəfindən ali ordenlə təltif olunmasına və ona fəaliyyətində göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov Türkiyənin Azərbaycandakı səfiri ilə görüşüb



**Martın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgünlə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov B.Akgünü Azərbaycanda diplomatik missiyasının başlaması münasibətilə təbrik edib, qarşıdakı fəaliyyətində ona uğurlar arzulayıb. Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin dövlət başçılarının birgə səyləri ilə müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatması məmnunluqla vurğulanıb.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

# Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyəti martın 17-si Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov və Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Polad Bülbüloğlu və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ölkəmizə rəsmi səfər edib

**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko martın 16-da ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında qonağı Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Polad Bülbüloğlu, hər iki ölkənin səfirləri Rəhman Mustafayev, Mixail Yevdakimov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*




# Milli Məclisin Sədri Sahibə Qafarovaya Rusiya Federasiyasının "Dostluq" ordeni təqdim edilib







**Martın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş olub. Görüşün sonunda Valentina Matviyenko Milli Məclisin Sədri Sahibə Qafarovaya Rusiya Federasiyasının "Dostluq" ordenini təqdim edib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib. Görüşdə Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

Spiker Sahibə Qafarova parlamentlərimiz arasındakı əlaqələrin rolunu qeyd edərək, ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektlərinə dair fikirlərini bildirib, bu kontekstdə parlament üzvlərinin fəaliyyətinin əhəmiyyətinə toxunub. Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının rolu vurğulanıb.



Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ölkəmizə səfəri və paytaxt Bakının sürətli inkişafı haqqında müsbət təəssüratlarını bölüşüb. O, Prezident İlham Əliyevlə görüşünü və aparılmış müzakirələri məmnunluqla qeyd edib. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə humanitar əlaqələrin bütün istiqamətləri üzrə apardığı fikir mübadiləsindən danışıb.

Federasiya Şurasının sədri görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin Rusiyada da geniş qeyd olunduğunu bildirib, bu dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərini vurğulayıb.

Valentina Matviyenko həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq səviyyədə artan rolunu qeyd edib. Vurğulanıb ki, Azərbaycan beynəlxalq tədbirləri, mədəniyyətlərarası dialoqu təşviq edən forumları, həmçinin nəhəng iqtisadi layihələri uğurla həyata keçirir. O, bütün təzyiqlərə baxmayaraq, böyük iştirakçı sayının təmin olunduğu və mühüm nəticələrin əldə edildiyi COP29-un uğurla reallaşdırıldığını vurğulayıb, öz təbriklərini çatdırıb. O cümlədən COP29 çərçivəsində təşkil olunmuş Parlament Toplantısının əhəmiyyətindən danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Parlamentlərarası Əməkdaşlıq Komissiyasının növbəti iclası

**Martın 17-də Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın açılış mərasimində Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.

Sahibə Qafarova və Valentina Matviyenko salamlama nitqlərində parlamentlərarası əlaqələrin əhəmiyyətindən söhbət açıblar. Hər iki spiker deputatların parlamentlərarası əməkdaşlıq komissiyası çərçivəsində fəaliyyəti barədə öz fikirlərini bölüşüblər.

Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğluna Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının "Parlamentarizmin inkişafındakı xidmətlərinə görə" fəxri nişanı təqdim edilib. Sonra Azərbaycan-Rusiya Parlamentlərarası Komissiya öz işini davam etdirib.

Komissiyanın həmsədrləri - Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov və Rusiya Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin gündəlikdəki məsələlər barədə məlumat veriblər.

İclas iştirakçıları təqdim edilən məsələlər barədə öz fikir və qeydlərini açıqlayıblar.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası komissiyasının 22-ci iclası başa çatıb.

Tədbirdə parlamentlərarası komissiyanın Azərbaycan və Rusiya tərəfindən üzvləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

*"Azərbaycan"*

# Valentina Matviyenko Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub





**Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, muzeyin direktoru Əminə Məlikova qonağa muzeyin tarixi, fəaliyyəti, zəngin kolleksiyaları, qədim xalçaçılıq ənənələrimiz barədə ətraflı məlumat verib.

Valentina Matviyenko muzeyə Azərbaycanın nadir mədəni-tarixi irsinin qorunub saxlanılması və təbliği istiqamətində fəaliyyətində uğurlar və tərəqqi, əməkdaşlara isə nəcib işlərində nailiyyət və ilham arzulayıb. Sonra qonaq xatirə kitabına öz xoş təəssüratlarını yazıb. Valentina Matviyenkoya muzeyin 55 illiyinə həsr olunan "Azərbaycan Milli Xalça Muzeyi" kitabı hədiyyə edilib.

# ERMƏNİ YALANLARININ ANATOMİYASI

İnsan mənəvi dəyərlərə malik olan yeganə varlıqdır.

* İnsanda mənlik hissi olur.
* İnsanda qürur hissi olur.
* İnsanda özünə hörmət hissi olur.

**Daxilində mənlik və qürur hissi olan, özünə hörmət edən insan heç zaman yalan danışmır, kimsəni aldatmır!**

**Dediyi sözün arxasından qaçmır!**

*Hər bir insan şəxsdir.*

*Amma hər bir insan şəxsiyyət olmur!*

Yuxarıda dediklərimizi və demədiklərimizi özündə ehtiva edən insanlar şəxsiyyət hesab olunurlar.

**Mənəvi dəyərlərdir insanı, şəxsi şəxsiyyətə çevirən!**

**Əsl şəxsiyyət özünə, sözünə, hərəkətlərinə, əməllərinə diqqət və qiymət verən dürüst insanlardan formalaşır.**

*Belələrinin bir adı da var:*

*Ləyaqətli insan!*

Deyir dünyanı necə tutsan, eləcə də gedər!

Bu deyim isə digər qrup insanlara şamil olunur.

Yalançı, paxıl, hiyləgər, acgöz, xəbis, fırıldaqçı, etibarsız...

Bu sifətlərin sayını bir qədər də artırmaq olar.

Bunlar da insanlara aid "keyfiyyətlər"dir.

Amma ləyaqətsiz insanlara...

Nəfsini hər şeydən yuxarı tutan insanlara.

Cilddən-cildə girməyi bacaran insanlara...

Çox da uzatmırıq!

Həyatda hər iki qəbildən olanların təmsilçilərinə çox rast gəlmişik!

**O xalq xoşbəxtdir ki, onun ləyaqətli, şəxsiyyətli övladları çoxdur!**

*Yazıq o xalqa, o millətə ki, ona ikinci qrupa mənsub insanlar rəhbərlik edir.*

*Bədbəxt o millətdir ki, ikiüzlülərin, yalançıların, riyakarların başçılığı altında çalışırlar.*

**Hətta yalanı, riyanı, çoxüzlülüyü özünə peşə seçən, gündəlik davranış normasına çevirən ölkələr, dövlətlər də olur!**

**Forpost Ermənistan kimi...**

❖ ❖ ❖

**44 günlük Zəfər müharibəsində dünyanın ədalət tərəzisinin Cənubi Qafqazda əyilən pərsəngi düzəldi!**

**Bunu Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə etdi!**

Ermənistan ordusunu məhv edərək qarşısında diz çökdürdü!

Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi və 30 ilədək havada qalan 4 qətnaməsini ordumuzun gücü ilə yerinə yetirdi!

ATƏT-in Minsk qrupunun sülh danışıqları imitasiyası ilə işğalı əbədiləşdirmək niyyətinə son qoydu!

Bütün təsir, təzyiq, hətta hədələrə əhəmiyyət verməyərək sonadək məqsədə doğru getdi:

* Ərazi bütövlüyümüzü bərpa etdi!
* Dövlət suverenliyini və Konstitusiya əsaslarını təmin etdi!
* Rusiya sülhməramlılarını musiqi ilə, mehribanlıqla yola saldı!

**Artıq Azərbaycan arxalı düşməninə qalib gəlmiş müzəffər dövlətdir!**

*Azərbaycan ərazisində bircə nəfər belə "fəal separatçı" olmayan dövlətdir!*

Artıq Azərbaycanın ərazisində bir nəfər belə əcnəbi əsgər, hərbi baza yoxdur!

**Azərbaycan qürurlu, məğrur dövlətdir!**

**Azərbaycan həm də hesab soran dövlətdir!**

Bu gün Azərbaycan torpaqlarının işğalında, ərazilərimizin dağıdılmasında, yağmalanmasında, soyqırımları törədilməsində, terrorçu dəstələrin yaradılmasında və insanlarımıza qarşı terror əməllərinin törədilməsində təqsiri olanlardan ədalət məhkəməsi qarşısında cavab tələb edildiyi bir ölkədir!

Bir vaxtlar erməni işğalına dəstək verənlərin, işğalın əbədiliyə çevrilməsinə can atanların yeni oyunbazlıqlarının şahidinə çevrilirik.

Müttəhimlər kürsüsündə əyləşənlərə dayaq durmaq, onları məsuliyyətdən yayındırmaq üçün yeni yalanlar uyduranlar, hiyləgər vasitələrlə onlara qahmar çıxanlar da var.

Amma Azərbaycan 44 günlük Zəfər müharibəsində olduğu kimi, ədalət mühakiməsində də qətiyyətli, inamlı və heç bir təsir, təzyiq cəhdindən çəkinməzdir!

Hər şey Femida tərəzisində çəkilərək obyektiv qiymətini alacaqdır!

❖ ❖ ❖

*Təkcə hərbi cəhətdən deyil, hüquqi, mənəvi, insani cəhətdən də sarsıdıcı məğlubiyyətə uğradılan haylar yenə də əsas silahlarından - yalan, hiylə və riyakarlıqlarından əl çəkmirlər.*

**Erməni yalanlarının tarixi isə çox qədimdir.**

Nə qədər ifşa olunsalar da, yenə həyasızlıqlarından, öz adlarını özgələrinə qoymaqdan əl çəkmirlər!

Maskalanmağı, baş verənləri başqa cür təqdim etməyi də məharətlə bacarırlar.

*Ən tutarlı "fakt"ları guya 1915-ci ildə baş vermiş "erməni soyqırımı"dır.*

Bu iddialarında iki məqsəd güdürlər:

Əvvəla, Osmanlı dövlətinə etdikləri xəyanəti "soyqırımı" bəhanəsi ilə pərdələyirlər.

İkincisi, özlərini "fağır", "məzlum", "zavallı", "köməyə ehtiyacı olan millət" kimi təqdim edirlər.

Bu əfsanənin günümüzə qədər gəlib çıxmasının səbəbkarları isə "soyqırımı" uydurmasını məkrli niyyətlərlə müdafiə edənlərdir.

**Ermənilər özləri də bilirlər ki, dedikləri yalandır!**

Odur ki, qorxularından nə öz tarixi arxivlərini ictimaiyyətə təqdim edir, nə də Türkiyə arxivlərində birlikdə işləməyə razılıq verirlər!

*Bilirlər ki, bu yalanı təsdiq edəcək bircə dənə də həqiqi tarixi sənəd, fakt yoxdur!*

**Amma özləri Azərbaycan xalqına qarşı XX əsrin ən böyük faciələrindən biri sayılan Xocalı soyqırımını törətdilər.**

*26 fevral 1992-ci ildə erməni faşistləri tərəfindən törədilən bu soyqırımı televiziya və fotoçəkilişləri, maddi sübutlar, şahid ifadələri ilə təsdiq olunur.*

"Xocalıya ədalət!" kampaniyasına cavab olaraq dünyanın bir sıra dövlətləri və parlamentləri Xocalı soyqırımını etiraf və qəbul ediblər.

**"Məzlum millət"in maskalarından biri belə cırılıb!**

*Ermənilər daim özlərini "qədim və mədəni xalq", "xristian dinini ilk qəbul edən millət" kimi təqdim etməyi də sevirlər.*

Ancaq bircə tarixi və mədəni abidələrini ortaya çıxara bilmirlər!

Bircə qədim dini məbədləri belə meydanda yoxdur, olanlar isə ondan-bundan oğurladıqları, müxtəlif üsullarla saxtalaşdırdıqlarıdır!

**"Mədənilik"lərini işğal etdikləri Azərbaycan ərazilərində törətdikləri vandallıqla, ekosid, urbisid, kulturosidlə bütün dünyaya nümayiş etdirdilər.**

Qarabağda, Şərqi Zəngəzurda törədilən vəhşiliklər erməni yalanlarını ifşa edən saysız-hesabsız faktlardır!

❖ ❖ ❖

*1988-ci ildən Azərbaycana qarşı ərazi iddiaları ilə başlayan, əsl niyyəti "miatsum" (Qarabağın Ermənistana birləşdirilməsi) olan hərəkat erməni yalanlarının yeni mərhələsi idi.*

Havadarlarının hərtərəfli dəstəyinə güvənən haylar bu niyyətlərinin gerçəkləşdirilməsinə də yalan, hiylə və məkrlə başladılar:

* Guya keçmiş DQMV iqtisadi cəhətdən digər bölgələrdən geri qalırmış...
* Guya buradakı ermənilər başqalarından pis yaşayırmış...

**Canını tapşırmaqda olan qırmızı imperiya bu dəfə də erməni yalanlarının dəstəkçisinə çevrildi.**

Daim forpostlarının nazı ilə oynayan Moskva hayların könlünü ələ almaq, əslində, separatizmə dəstək vermək üçün bir sıra addımlar atdı.

*Əvvəlcə, Sov.İKP MK və SSRİ Nazirlər Soveti bölgədə iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün xüsusi qərar qəbul etdi.*

Ermənilər buna qane olmadılar.

*Sonra yenə Kremlin qərarı ilə "Dağlıq Qarabağda" "xüsusi idarəetmə qaydası" tətbiq olunaraq "DQMV"nin idarəçiliyi qondarma komitəyə həvalə olundu.*

**Əslində, bu "muxtar vilayətin" Azərbaycanın tabeçiliyindən çıxarılması, erməni yalanına və separatçı niyyətinə dəstək verilməsi demək idi!**

*Erməni yalanlarının müdafiəçisi rolunda çıxış edən keçmiş SSRİ rəhbərliyi Ermənistanın silahlanmasına, Qarabağ ərazisində Ermənistan tərəfindən terrorçu qruplaşmaların, xüsusi hərbi birləşmələrin yaradılmasına və bu yolla azərbaycanlıların ata-baba yurdlarından zorla qovulmasına laqeyd yanaşaraq cinayətkar əməllərə göz yumurdu.*

Sovet dövründə heç bir müttəfiq respublikanın özünə məxsus olan hərbi birləşməsi, ordusu ola bilməzdi!

**Amma Ermənistanı istisna etdilər, rus silahları ilə ordu yaratdı, həmin ordu ilə Azərbaycan ərazilərini işğal etdilər, sonradan iki dəfə bir milyard dollarlıq havayı silah-sursat verdilər.**

Təkcə ATƏT-in Minsk qrupunun üzvü olan Rusiya deyil, dünyanın digər "demokratik" dövlətləri, beynəlxalq qurum və təşkilatlar da Ermənistanın işğalçı hərəkətlərinə göz yumdular, özgə dövlət ərazisində ordusunu saxlamasını görməzliyə vurdular.



*İndi isə Ermənistan və onun rəhbərləri həmin faktları həyasızcasına inkar edirlər, olanları danmaq üçün min bir hiyləyə əl atırlar.*

Amma "faktlar tərs şeydir" məşhur deyimi də var!

❖ ❖ ❖

**Bu gün Azərbaycanda gedən məhkəmə prosesi erməni yalanlarının anatomiyasını aşkara çıxarır, Ermənistanın paxırının üstünü açır, Paşinyanda təşviş hissi doğurur.**

Yalançılığı və hiyləgərliyi dövləti idarəetmənin tərkib hissəsinə çevirən Ermənistanın baş naziri həqiqətləri ört-basdır etmək, olanları pərdələmək üçün yeni yalanlar uydurmağa başlayıb.

*Bəli, Bakıda Nürnberq prosesinə bənzər bir məhkəmə prosesi davam etməkdədir.*

*Azərbaycan xalqının, xüsusən şəhid ailələrinin uzun illər gözlədiyi və arzuladığı proses.*

**Artıq hesab vaxtı çatıb və Azərbaycan hesab sorur.**

Belə ki, *Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi davam etdirilir.*

*Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.*

**İbtidai istintaq prosesi uzun müddət davam etmiş, xeyli sənədlər araşdırılmış, sübutlar toplanılmış, şahid ifadələri dinlənilmişdir.**

**İttiham edilənlərin istintaq materialları ilə tanış olmalarına kifayət qədər vaxt da verilmişdir.**

*Məhkəmə prosesinin başlanması ilə Paşinyanın narahatlığı da başlamışdır.*

*Gah açıqlamalar verir, gah keçmiş jurnalistliyini yadına salaraq məqalələr yazır, gah da ağlına və ağzına gələnləri özünəməxsus şəkildə havaya üfürür.*

Uydurmalarının biri də Bakıda saxlanılan məhbuslara müxtəlif "təsir və təzyiq" göstərilməsi, ifadələrinin "qəbuledilməz" formada alınmasıdır.

**Azərbaycan isə bu yalanların üstünü konkret faktlarla açır.**

*Əvvəla,* məhkəməsi olanlar özləri sərbəst ifadə verirlər və ibtidai istintaqda dediklərini məhkəmədə təkrar edirlər.

*İkincisi,* etiraf edirlər ki, ifadələrini xoşluqla veriblər, onlara heç bir təzyiq göstərilməyib.

*Üçüncüsü,* R.Vardanyan məhkəmədə heç bir suala cavab vermir, danışmır, heç onu kimsə zorla danışdırmaq niyyətində də deyil.

**Susmaq razılıq işarəsidir - etdikləri məlum olduğundan əlavə şərhlər vermir.**

*Onun əvəzində pulları hesabına xaricdə ələ alınmış KİV, ayrı-ayrı siyasətçilər, məsələnin mahiyyətindən xəbərsizlər boş-boşuna danışırlar.*

Olsun, danışıqla heç nə həll olunmur!

Həm də onun əvəzində onun fəaliyyəti barədə Xankəndidə yaşayan, etdiyi əməllərin şahidi olan erməniəsilli şahid məhkəmədə görüb bildikləri barədə şahidlik etdi.

**Kamo Hayrapetyan Ruben Vardanyanın 44 günlük müharibədən bir qədər əvvəl Xankəndiyə gəldiyini söylədi:**

*"Mənim üçün maraqlı o idi ki, dünyada tanınmış biznesmen, oliqarx Ruben Vardanyan, - mən demirəm ki, o, mənim düşmənimdir, yox, - nəyə görə öz biznesini qoyub Qarabağa gəlmişdi?"*

*"Xankəndidə yaşayan ermənilər də Qarabağ ərazisində minalanma işlərinin Ruben Vardanyan gələndən sonra geniş vüsət aldığını biliblər".*

*"Ruben Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradılıb. Həmin anbarların yerləşdiyi yerə gedən yolu silahlı şəxslər mühafizə edirdilər. Həmin anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstəriblər. Anbarlara Ruben tərəfindən Qarabağa gətirilmiş xeyli sayda silah və döyüş sursatı, habelə pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları toplanıb".*

*"Ruben Vardanyanın gəlişindən sonra erməni sakinlərdə Azərbaycana qarşı düşmənçilik meyilləri gücləndi. Ruben Vardanyan erməni sakinlərin azərbaycanlılara nifrət etməsinə çalışırdı".*

*"Mən Vardanyanı başa düşmürəm, əgər xalq üçün yaxşılıq edirsənsə, niyə silah alırsan, mina basdırırsan, adamlara pul verirsən, düşərgə açırsan? Əgər silah yaxşı şeydirsə, al apar evinə, övladların döyüşsün. Vardanyan elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb".*

**Məhkəmə sonda öz qərarını törədilən cinayət əməllərinə uyğun maddələr əsasında çıxaracaqdır.**

*Ən nəhayət,* təqsirləndirilən şəxslərin məhkəməsi Azərbaycanın KİV-ində, televiziya kanallarında geniş işıqlandırılır, sosial şəbəkələrdə əksini tapır, maraqlananlar sərbəst ifadə verənlərin dediklərini özləri dinləyə və oxuya bilirlər.

❖ ❖ ❖

Müxtəlif vaxtlarda keçirilmiş məhkəmə prosesləri zamanı təqsirləndirilən şəxslərin verdikləri ifadələrdə Paşinyanın söylədiklərini və bir sıra qərəzli insanların və xarici KİV-in yalanlarını təkzib edən bəzi məqamları diqqətə çəkirik:

**Qondarma "dqr"in keçmiş "prezident"i Arayik Harutyunyan:**

*"2020-ci ilin iyun ayında mən Paşinyandan xahiş etdim ki, bizi danışıqlar prosesi ilə tanış etsin. 2020-ci ilin iyununda İrəvanda bizim birgə Təhlükəsizlik Şurasının iclası oldu. Bu, hamı üçün açıq bir iclas idi. İclas zamanı Ermənistanın ovaxtkı xarici işlər naziri bizi danışıqlar prosesi ilə tanış etdi. Aydın idi ki, bu proses dalana dirənmişdi. Bu iclasda Ermənistanın müdafiə strukturlarının rəhbərləri bizi orduda olan vəziyyətlə tanış etdilər. Aydın oldu ki, Ermənistan müharibəyə hazır deyil. Müharibə etmək üçün müəyyən resurslar lazımdır. Belə ki, ərzaq, silah resursları, maliyyə resursları lazım idi. Məlum oldu ki, Ermənistanın buna imkanı yoxdur. Mən orada çox qısa olaraq öz fikrimi söylədim. Bildirdim ki, müharibə vaxtı nəticə bizim resurslarımıza görə olacaq. Çünki istənilən müharibə resursların müharibəsidir. Azərbaycanın isə bütün sahələr üzrə potensialı Ermənistandan dəfələrlə üstün idi.*

*Sonra iyul ayında siz daha yaxşı bilirsiniz ki, o vaxt Tovuzda atışmalar baş verdi. Orada nə baş verməsi barədə mənim təsəvvürüm də yox idi. Televizorda nə göstəriblərsə, yalnız onu bilirəm. Mən yeni bir adam olduğum üçün gərək "ordu" ilə tanış olardım və təmas xəttində nə baş verirsə bilərdim. 2020-ci ilin yayında ön cəbhəni və "ordu"nu gəzməyə, tanış olmağa başladım. Mən "Feysbuk" səhifəmdə və "rəhbərliyin saytında" bir neçə məqalə dərc etdim. "Ordu" ilə bağlı bütün informasiyaları "mətbuat xidməti" bizə təqdim edirdi. Və mənim səhifəmdə onlar çap olunurdu. Bəli, orada mənim elə çıxışlarım və söylədiklərim var idi ki, indi hazırda təəssüf edirəm ki, bunlara yol vermişəm".*

*"Təlimlərə rəhbərliyi Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyan edirdi. Bu da gizlin proses deyil, hamının gözünün qarşısında olan bir şey idi. Yayın sonunda Qarabağa Nikol Paşinyan gəldi. Mən onu "ordu bölmələri"nə qədər müşayiət eləmişəm. O, vəziyyətlə tanış oldu".*

*"Qarabağda olan ermənilərin təhlükəsizliyinə görə Ermənistan məsuliyyət daşıyır. Ermənistan silahlı qüvvələri, "Qarabağ müdafiə ordusu" da ora daxil idi. Deməli, Ermənistan təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyət daşıyır".*

A.Harutyunyan etiraf edib ki, "Qarabağ Müdafiə Ordusu"nun "komandanı" Ermənistan Respublikasının Baş Qərargah rəisinə tabe idi.

*"Mən "hərbi komandanı" vəzifəyə təyin və vəzifədən azad etməmişəm, çünki mənim buna səlahiyyətim olmayıb".*

Ermənistanda anadan olmuş, Ermənistan Respublikasının vətəndaşı, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş, qondarma rejimin qanunsuz silahlı birləşmələrində "komandanın 1-ci müavini", Ermənistan Respublikasının Müdafiə Nazirliyinin Baş Qərargahında Kadrlar idarəsinin rəisi, korpus komandiri işləmiş təqsirləndirilən şəxs Davit Manukyan ifadəsində Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşdüyünü etiraf edib.

O, hərbçi olduğunu, Ermənistanda xidmət etdiyini, həmçinin Birinci və İkinci Qarabağ müharibələri zamanı Ermənistan ordusunun tərkibində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı vuruşduğunu bildirərək deyib:

*"Birinci müharibə zamanı xidməti mövqeyim, vəzifəm olmayıb. İkinci müharibə zamanı isə olub. Amma bütün bunlar mənim xidməti öhdəliklərimdən qaynaqlanıb. Xüsusilə müharibənin planlaşdırılması".*

*"Mən sıravi əsgər statusunda olmuşam, döyüş əməliyyatlarında iştirak etmişəm. 1993-cü il fevralın 28-də Ağdərə istiqamətində yaralanmışam. 1994-cü ildə yenidən xidmətə qayıtmışam... Müharibədən sonra da xidmətə davam etmişəm, zabit rütbəsi almışam".*

***Lyova MNATSAKANYAN:***

*"Ermənistan nizami ordusunun tərkibində Azərbaycana qarşı müharibədə iştirak etmişəm".*

*"Mənim 2016-cı il əməliyyatlarına cəlb olunmağıma zərurət olmayıb. Əgər olsaydı, təbii ki, cəlb olunacaqdım. Bir çox taktiki, kəşfiyyat silahları və radioelektron qurğularımız var idi ki, onlardan Ermənistanda da olub və biz o silahları Ermənistandan almışıq".*

**Davit ALLAHVERDİYAN:**

*"Mənə qarşı münasibət insani, yaxşı olub, buna görə təşəkkür edirəm . İndi bütün suallara cavab verməyə hazıram".*

**Madat BABAYAN:**

*"1992-ci ildə Xocalıda olmuşam. Məni çağırdılar getdim. Dedilər burada meyitlər var, gəl dəfn edək. Mən də aparıb yerini göstərdim".*

**Bako SAHAKYAN:**

*"Silahların bir hissəsi dislokasiya olunmuş sovet hərbi hissələrindən idi. Bundan başqa, Ermənistandan silah tədarükü var idi. Silahlanma ilə bağlı əsas istiqamətlər bunlar idi".*

**İfadə verənlərin hamısı Ermənistan ordusunun tərkibində Qarabağda Azərbaycana qarşı döyüşdüklərini etiraf edirlər.**

Onların müharibədə törətdikləri cinayətlər barədə isə bu gün məhkəmə iclaslarında iştirak edən, vaxtilə müharibə cinayətlərinə məruz qalan şahidlər danışacaqlar!

❖ ❖ ❖

Bu günlərdə "Daşnaksütyun" partiyası yaxın illər üçün strategiyasını elan etmişdir.

Əsas məsələlər sırasında Azərbaycanın ərazi bütövlüyünə təhdid olan müddəalar da var.

**Söhbət Ermənistanın "müstəqillik bəyannaməsi"nə əsasən ölkənin "suverenliyi və ərazi bütövlüyünün təmini" iddiasından gedir.**

**Maraqlıdır ki, iddialar yalnız Qarabağa deyil, habelə Naxçıvana və şərqi Türkiyəyə də ünvanlanır.**

"Ac toyuq yuxusunda darı görər" - demişlər.

Amma bu da bir faktdır ki, haylar bu ideyanın əleyhinə çıxan erməni millətindən olanları bağışlamır və ağır şəkildə cəzalandırırlar.

**Məsələn, yaxınlarda erməni bloqçusu İşxan Verdyan Azərbaycan Prezidentinə müraciət edərək ondan imdad diləyirdi:**

*"Qarabağı Azərbaycan ərazisi olaraq açıq şəkildə tanıdığım üçün Ermənistanda mənə qarşı cinayət işi açılıb. İrəvan Azərbaycan və Ermənistanın suverenliyinin qarşılıqlı tanınması lehinə çıxış etdiyimə, həmçinin "artsax" kvazi - dövlət qurumu və onunla bağlı hər şey haqqında tənqidi bəyanatlarıma görə mənə ömürlük həbs cəzası vermək istəyir".*

Özünü sülh göyərçini kimi göstərmək cəhdi hara, revanşizmə hazırlaşaraq müxtəlif xülyalar qurmaq hara...

**Ermənistanın baş naziri N.Paşinyan erməni yalanlarının ifşa olunduğunu görərək bərk əl-ayağa düşüb.**

Xislətinə uyğun qaydada Azərbaycanı şərləməyə başlayıb.

Bu dəfə Bakıda mühakiməsi gedən dustaqlarla bağlı.

**Məhkəmə prosesi davam etdikcə, təqsirləndirilənlər sərbəst ifadələr verdikcə, təkcə Ermənistan dövlətinin deyil, Paşinyanın da paxırı açılır.**

Odur ki, qabaqdangəlmişlik edərək verilən ifadələrinin həqiqiliyini şübhə altına almağa çalışır.

*Guya məhkumlardan ifadələr "qanunsuz üsullarla" alınır.*

Bu iddianı isə elə məhkəməyə sərbəst ifadə verən təqsirləndirilən şəxslər dedikləri ilə təkzib edirlər.

**Belədə Paşinyandan başqa cür davranış gözləmək özü yanlış olardı…**

**Mayası iftira və yalanla yoğrulanların mahiyyəti belə olur!**

Əslində isə Paşinyan məlum həqiqətləri təsdiq edən müttəhimlərin dediklərindən qorxmamalıdır.

Bunlar keçmişdə baş verən reallıqlardır.

**Paşinyan bu gün yeritdiyi ağılsız siyasətin gələcək nəticələrindən ehtiyat etməlidir!**

* Üçtərəfli Bəyanatın tələblərinin yerinə yetirilməməsi;
* Qonşulara qarşı ərazi iddialarına son qoyulması üçün ölkə konstitusiyasında zəruri dəyişikliklər edilməməsi;
* Sürətli silahlanma yolunu seçməsi;
* Ermənistanın revanşa hazırlaşması;
* Cənubi Qafqazda sabitliyin pozulacağına səbəb olacaq addımların atılması Ermənistan üçün fəlakətli nəticələr doğuracaqdır!

Bu halda forpost dövlət nəinki daim dalanda qalacaqdır, hətta olub-qalanlarını da əldən verəcəkdir!

**Bəxtiyar SADIQOV**




# Konstitusiya və Suverenlik İli 2025





# Heydər Əliyev qətiyyətinin təntənəsi

### Ulu Öndərin prinsipial mövqeyi, dəmir iradəsi və xalqın öz liderinin ətrafında sıx birləşməsi 1995-ci ilin martında dövlətçiliyimizə qarşı yönəlmiş qəsdi puça çıxardı

**1995-ci ilin məlum mart hadisələrindən 30 il ötdü. Həmin vaxt antiazərbaycançı qüvvələrin diktəsi ilə dövlət çevrilişinə cəhd edənlər, əslində, müstəqil Azərbaycan dövlətçiliyinə qarşı sui-qəsd yolu tutmuşdular. Azərbaycan Respublikasının Konstitusiya quruluşuna qarşı çıxanlar, hakimiyyətin zorla dəyişdirilməsi niyyəti ilə dövlətə silah tuşlayanlar həmin vaxt həm də xalqa xəyanət etdilər.**

## Antiazərbaycançı qüvvələrin bütün bədnam niyyətləri iflasa uğradıldı

1995-ci ilin mart hadisələri Azərbaycanın sabit inkişaf və islahatlar yoluna qədəm qoyduğu dövrə təsadüf edirdi. Məlum olduğu kimi, 1993-cü ildə Heydər Əliyevin xalqın istək və arzusu ilə siyasi hakimiyyətə qayıdışından sonra respublikamızın həyatında və tarixində tamamilə yeni mərhələ başladı. Bu, müstəqilliyimizin qorunmasından tutmuş, cəbhədə həyata keçirilən uğurlu döyüş əməliyyatlarına, ərazilərin işğaldan azad edilməsinə, ölkədə qanunçuluğun möhkəmləndirilməsinə qədər özünü göstərirdi. Bütün bunlar isə nəticə etibarilə müstəqilliyimizin əsaslarını möhkəmləndirmiş, ölkə vətəndaşlarının sabaha olan inamını təmin etmişdi. 1994-cü ilin may ayında cəbhədə atəşkəs elan edilməsi, sentyabr ayında isə dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın qədəm qoyduğu inkişaf dövrünün başlanğıcı idi. "Əsrin müqaviləsi" 1995-ci ildə reallaşmağa başlanacaqdı. Xarici investorlarla daha bir iri neft müqaviləsi hazırlanır, ölkənin sosial-iqtisadi inkişafını müəyyənləşdirən perspektivlər nəzərdən keçirilirdi. 1995-ci ilin payızında isə ölkə konstitusiyası qəbul edilməli, yeni parlament seçilməli, bir sözlə, Azərbaycanda hüquqi, demokratik dövlətin inkişafı dönməz xarakter almalı idi.

Bu mənada həmin vaxt baş verənlər respublikamızda dövlət quruculuğunun ilk praktik uğurlarının önünü kəsməyə yönəlmiş cəhd idi. Onu da qeyd edək ki, Azərbaycan dövlətçiliyinə qəsd edənlər öz məkrli planlarını hələ bundan əvvəl, 1994-cü ilin sentyabrında həyata keçirməyə cəhd etmiş, lakin yaddan çıxarmışdılar ki, hakimiyyətdəki AXC-Müsavat cütlüyü yox, böyük siyasətçi, xalqın əzmkar lideri Heydər Əliyevdir. Azərbaycanın müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, respublikamızı başqa dövlətlərin himayəsində görmək, hətta onu quberniyalara belə bölmək istəyən cinayətkar ünsürlər bundan dərs götürməyərək 1995-ci ilin martında yenidən antikonstitusion əməllərə əl atdılar.

Ancaq bu məkrli planı hazırlayanlar və icra edənlər bir neçə məqamı görməzdən gəlmişdilər: Heydər Əliyevin qətiyyətini və şəxsiyyətinin əzəmətini, o cümlədən Azərbaycan xalqının öz rəhbərinə olan sarsılmaz inamını. Bəli, məhz Heydər Əliyevin qətiyyəti və siyasi dühası, xalqımızın öz liderinin ətrafında sıx səfərbər olmasının nəticəsində antiazərbaycançı qüvvələrin bütün bədnam niyyətləri iflasa uğradı.

## Azərbaycan dövlətçiliyi amansız bir sınaqdan alnıaçıq çıxdı

30 il əvvəl, 1995-ci ilin martında hakimiyyət dəyişikliyi cəhdinin qarşısının qətiyyətlə alınması Azərbaycan dövlətçiliyini ciddiyə almayaraq öz məkrli niyyətlərini həyata keçirmək istəyənlərə birdəfəlik və sərt cavab oldu. Mart hadisələri Azərbaycan dövlətçiliyinin möhkəm, qüdrətli olduğunu göstərdi, ona qarşı zor işlətməyin mənasızlığını sübut etdi. Bütün bunlar xalqın müdrikliyinin, milli həmrəyliyinin, inamının, dövlətçiliyə hörmət və ehtiramının güclü olduğunu, Azərbaycan Respublikasının demokratik əsaslarının möhkəmliyini, konstitusiya və qanunlardan kənar fəaliyyətin yolverilməzliyini nümayiş etdirdi.

Beləliklə, 1993-cü ildə siyasi hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanın müstəqilliyini xilas etdi. 1995-ci ilin martında isə Heydər Əliyev müstəqil dövlətçiliyimizi qorudu, antiazərbaycançı qüvvələrin məkrli planlarının qarşısını aldı.  Məhz Ulu Öndərin sayəsində Azərbaycan amansız bir sınaqdan alnıaçıq çıxdı. Heydər Əliyevin prinsipial mövqeyi, dəmir iradəsi, qətiyyəti və xalqın öz liderinin müdafiəsinə qalxması dövlətçiliyimizə yönəlmiş qəsdi puça çıxardı.  Antimilli şəbəkənin planlarının iflasa uğradılması Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, milli maraqlarının qorunmasının və gücləndirilməsinin möhkəm əllərdə olduğunu göstərdi. Bununla həm də silahlı yolla hakimiyyətə gəlmək ənənəsinin qarşısı bərdəfəlik alındı, hərbi müxalifət anlayışına birdəfəlik son qoyuldu.  Hadisələrin təşkilatçıları və iştirakçıları isə layiqli cəzalarını aldılar.

1995-ci ildə Azərbaycanda sabitlik tam təmin olundu, yeni Konstitusiyanın layihəsi hazırlandı, Milli Məclisə ilk seçkilər keçirildi, inkişafa gedən yolların etibarlı təməlləri yaradıldı. Bu mənada Azərbaycanın yüksəlişinin təməlində Ulu Öndər Heydər Əliyevin həmin gərgin dönəmlərdə nümayiş etdirdiyi qətiyyət dayanır.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qarabağda bayram havası

### Artıq Novruz tonqalları bütün Azərbaycanda qalanır




**"Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir".**

Ötən il martın 18-də Müzəffər Ali Baş Komandan İlham Əliyev bir qərinəlik həsrətin ardından Novruz bayramının bütöv Azərbaycanda keçirilməsindən doğan qürurunu bu sözlərlə dilə gətirmiş, xalqımızla sevinc hisslərini bölüşmüşdü.

Qarabağın xilaskarı vaxtilə Xankəndidə xalqımıza qarşı erməni şovinistləri tərəfindən mənfur planların başladıldığı bu meydanda bayram tonqalını alovlandırmaqla, bu meydana Zəfər meydanı adı verməklə bir daha dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu çatdırmışdı: "Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. ...Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən "Zəfər meydanı" adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır".

## "Novruz tonqalı da son təmizləmə işlərini görür"

Ancaq bu zəfər günlərinə çatmaq üçün haqq uğrunda çıxdığımız və xeyli əzablardan keçən, mənfur düşmənlə ölüm-dirim savaşı aparmalı olduğumuz uzun bir sınaq yolunu da keçdik...

1988-ci ildə Xankəndidə erməni quldurlarının başlatdığı separatizm xalqımıza çox müsibətlər yaşatdı. Həmin il fevralın 13-dən Xankəndinin mərkəzi meydanında ermənilərin fasiləsiz mitinqləri başlamışdı və proses fevralın 20-nə qədər kütləvi şəkildə davam etdirilmişdi. Fevralın 20-də isə ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq vilayətin Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşdirilməsi barədə qərar qəbul etmişdilər. Həmin bədnam qərarın qəbul edildiyi tarixdən sonra erməni quldurları daha geniş əl-qol açaraq xalqımızı deportasiyalarla, kütləvi qətllərlə, soyqırımları ilə yenidən üz-üzə qoydular, torpaqlarımıza açıq şəkildə iddia etməyə, ardınca isə işğala başladılar. Ermənistanın başlatdığı təcavüzkar müharibə nəticəsində bir milyona yaxın vətəndaşımız dədə-baba yurdlarından didərgin salınaraq məcburi köçkünə çevrildi. Həmin dövrdə Xocalıda və daha neçə-neçə yurdlarımızda xalqımıza qarşı soyqırımları, qətliamlar törədildi.

Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzlə üz-üzə qaldığı həmin bədnam tarixdən - 1988-ci ilin fevralından 2023-cü ilin sentyabrına qədər ötən 35 illik zaman ərzində xalq olaraq çox faciələrlə üzləşdik, amma sınmadıq, haqq mübarizəsindən bir addım belə çəkilmədik.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində Qarabağda şanlı zəfər qazanmaqla torpaqlarını işğaldan qurtardı. 2023-cü ildə cəmi 23 saat çəkən antiterror tədbirləri ilə separatizm diz çökdürüldü, suverenliyimiz təmin edildi, Konstitusiyamız bütün ərazilərimizdə qüvvəyə mindi.  İkiəsrlik erməni faşizminin başı birdəfəlik  əzildi.

2023-cü ildə Qalib sərkərdə İlham Əliyev Azərbaycan bayrağını Xocalıda, Xocavənddə, Əsgəranda dalğalandırdı. Qarabağın xilaskarı İlham Əliyev müqəddəs bayrağımızı Xankəndinin mərkəzi meydanında dalğalandıraraq, "Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - deyə dünyaya bəyan etdi.

Salnamələrimizə qızıl hərflərlə yazılan bu tarixi hadisə cəfəng "miatsum" ideyasını da birdəfəlik cəhənnəmə göndərdi. Çünki erməni şovinistləri bu meydanda ayağa qalxaraq Azərbaycan xalqına qarşı cinayət əməllərinə başlamışdılar. Buna görə də Xankəndidə bu meydanda bayrağımızın ucaldılması torpaqlarımızın bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə yüksələn oğul və qızlarımızın ruhunun şad olması demək idi.

Ötən ilin martında müzəffər lider İlham Əliyev tərəfindən Xankəndidə bütöv, abad, firavan zəfər ölkəsi Azərbaycanın rəmzi olan Novruz tonqalı alovlandırıldı. Həmin vaxt Prezident İlham Əliyev uğurla keçirilmiş antiterror tədbirlərinin beynəlxalq hüququn, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunu söylədi: "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

## Vətən ətirli bahar

Biz düz üç onillik boyu bu günlərin həsrətini çəkmişdik. 1990-cı illərin əvvəllərində müstəqillik qazanan xalqımız milli bayramlarını daha təmtəraqlı, ürəyi istəyən kimi yenicə qeyd etməyə başlamışdı ki, bu sevinci çox çəkmədi... Olmazın müsibətlərə tuş gəldi, torpaqlarımızın itkisi, insanlarımızın məcburi köçkün düşməsi, ard-arda yaşanan soyqırımlar, şəhid xəbərləri işıqlı günlərimizin üzərinə qara kölgə kimi çökdü...

Ötən müddətdə xalq olaraq başımıza gələn müsibətlərə sinə gərməyə çalışdıq, milli adət-ənənəmizin, mənəvi dəyərlərimizin unudulmaması üçün el bayramlarımızı, Novruzu təmtəraqla olmasa da, keçirməyə çalışdıq. Amma ürəyimizdəki Vətən yarası heç zaman qaysaq bağlamadı, bayramlarımızı qəlbimizdə olan buruqluq hissi ilə keçirdik. Bu illər ərzində keçmiş məcburi köçkünlərimizin ağrı-acıları isə ikiqat oldu. Onlar didərgin salındıqları dədə-baba yurdlarında vaxtilə keçirdikləri bayramların yaratdığı kədər hissindən qurtulmaq üçün xatirələrlə ovunmağa çalışdılar. Yaşlılar Qarabağda, Şərqi Zəngəzurda doğulmayan yeni nəsli - nəvə-nəticələrini çatılan tonqalların başına yığıb Kəlbəcərdə, Laçında, Cəbrayılda, Qubadlıda, Füzulidə, Ağdamda... çərşənbələrin, Novruzun necə qeyd edildiyindən, bayram adət-ənənələrdən həvəslə söz açdılar. O xoş çağları hələ də unuda bilməyən insanlarımız bayram günlərində acı göz-yaşları tökdülər... Bunun necə ürəkdağlayan hiss olduğunu isə sözlərlə təsvir etmək mümkünsüzdür...

Ancaq belə kədərli günlərimiz arxada qalıb. Azərbaycanın başındakı duman, çən-çiskin dağılıb elimiz zəfər ab-havasına köklənib. Bayram dualarımız çin olub, biz bütöv vətənə qovuşmuşuq.

Bu qüruru, xoşbəxtliyi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu, canlarını bu torpağa qurban verən müqəddəs şəhidlərimiz xalqımıza ərməğan ediblər. Keçmiş məcburi köçkünlərimizin yurd həsrəti bitib qayıdış sevincləri başlayıb. Qarabağ və Şərqi Zəngəzura ay-ulduzlu, üçrəngli bayraqlarımızla bəzədilmiş qayıdış karvanları yola düşür, o yurdlarda işığı yanan ocaqların sayı gündən-günə artır. Qısa zaman ərzində on mindən çox sakininə qovuşan torpaqlarımızda yeni körpələr dünyaya göz açır, toylar çalınır, bayram tonqalları çatılır, Novruz bayramı qeyd edilir, bir sözlə, həyat qaynayır...

İndi yaşıl libaslı bahar fəsli yurdumuza bir başqa növraqla qədəm qoyur. İlıq nəfəsli yazın gəlişi ruhumuza dinclik yayır, Xankəndidən Bakıya, Laçından Astaraya, Xocalıdan Zaqatalaya, Naxçıvandan Qusara... qədər bütün Azərbaycanda çatılan Zəfər, Novruz tonqallarının şölələri xalqımızın hər bir üzvünün qəlbinə sevinc saçır...

Göylərdən nur ələnir,  arzularımız çiçək açır... xalqımız bayram sevincini Zəfər qürurunun yaratdığı təsvirəgəlməz coşqu ilə qeyd edir...

Düz beşinci ildir ki, el-obamıza qədəm qoyan gül-çiçəkli bahardan Vətən ətri gəlir...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Xarici İşlər Nazirliyi Azərbaycanda akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri üçün iftar tədbiri təşkil edib



**Martın 17-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri üçün Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunmuş iftar tədbirində çıxış edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, çıxışında nazir Ceyhun Bayramov müqəddəs Ramazan ayı, habelə qarşıdan gələn bayram münasibətilə təbriklərini çatdırıb, dünyamıza sülh, əmin-amanlıq arzulayıb.

İslam dünyasını bir-birinə bağlayan bu müqəddəs ayın yüksək mənəvi dəyərləri aşıladığı vurğulanıb. Azərbaycan cəmiyyətinin milli-mənəvi dəyərlərində, o cümlədən müxtəlif icmaların nümayəndələrinin sülh şəraitində birgəyaşayış təcrübəsində islam dininin və Ramazan ayının xüsusi yeri və rolundan bəhs olunub.

Bununla belə, dünyamızda islam dininə qarşı çevrilən diskriminasiya, dini zəmində zorakılıq halları, islamofobiya meyilləri, müsəlman aləmində baş verən münaqişələr nəticəsində yaranan qeyri-stabilliyin narahatlıq doğurduğu diqqətə çatdırılıb. İslam dünyasındakı birlik və həmrəyliyin belə çağırışlarla mübarizədə əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi şanlı ordumuz tərəfindən torpaqlarımızın işğaldan azad olunması, keçmiş münaqişəyə son qoyulmasından sonra bölgəmizdəki dinamik inkişafdan ətraflı bəhs edib, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini yad edib.

Postmünaqişə dövründə baş verən proseslər barədə danışan nazir Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını bildirib. Bununla yanaşı, sazişin imzalanması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılması ilə bağlı müvafiq düzəlişin edilməsi tələbimiz bir daha vurğulanıb. Bu xüsusda ATƏT-in artıq aktual olmayan Minsk qrupu və digər aidiyyəti strukturlarının ləğvinin də vacibliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun duayeni, Fələstinin ölkəmizdəki səfiri Nəssir Əbdülkərim Əbdürrəhim çıxış edərək Ramazan ayı münasibətilə təbriklərini çatdırıb, eləcə də bu mübarək ayda Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif olunmasından şərəf duyduğunu bildirib.

Sonra isə Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi tərəfindən iftar duası oxunub, tədbir iştirakçıları üçün iftar süfrəsi açılıb.

# Azərbaycanla Gürcüstan arasında din sahəsində əlaqələr müzakirə olunub



**Gürcüstanda səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti martın 17-də Tbilisi şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib.**

Komitədən AZƏRTAC-a bildiriblər ki, abidənin önünə gül dəstələri düzülüb, Ümummilli Liderin xatirəsi dərin ehtiramla anılıb.

Sonra nümayəndə heyətinin Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ilə görüşü olub.

Dövlət komitəsinin sədri Gürcüstanda yaşayan azərbaycanlıların milli-mənəvi, dini dəyərlərinin qorunub saxlanılması, inkişaf etdirilməsi, dini etiqad azadlığının təminatı istiqamətində görülən işlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Ölkəmizdə dövlət-din münasibətləri, mövcud tolerant və multikultural mühitdən danışan komitə sədri Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətin bütün dini icmalara diqqət və qayğı göstərdiyini, vətəndaşların dini ibadətlərini sərbəst yerinə yetirməsi üçün hər cür şərait yaradıldığını vurğulayıb. Ramin Məmmədov qeyd edib ki, iki ölkə arasında qarşılıqlı etimada əsaslanan münasibətlər bütün məsələlərin müzakirəsi üçün əlverişli şərait yaradır.

Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ölkədə ənənəvi tolerant mühitin olduğunu, dövlətin dini qurumlara, o cümlədən müsəlman icmasına, dini ibadət yerlərinə dəstək göstərdiyini qeyd edib. Gürcüstanla Azərbaycan arasındakı dostluq münasibətlərinin, ikitərəfli əlaqələrin inkişafında dini qurumların əməkdaşlığının mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev iki ölkənin regionda sülh və təhlükəsizliyin təmin olunmasında vacib rol oynadığını bildirib. Yüksəksəviyyəli siyasi əlaqələrin sosial-iqtisadi, mədəni və dini sahədə birgə layihələrin uğurla həyata keçirilməsinə zəmin yaratdığını deyib.

Azərbaycan-Gürcüstanın parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev qanunverici orqanların əməkdaşlığı haqqında məlumat verib. İki ölkənin parlamentlərinin qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi və beynəlxalq platformalarda birgə fəaliyyəti barədə faktları diqqətə çatdırıb.

Gürcüstan Patriarxlığı və Bütün Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndələrinin də iştirak etdiyi görüş zamanı din sahəsində əməkdaşlığın istiqamətləri, Gürcüstandakı müsəlman icması ilə Azərbaycandakı gürcü pravoslav icmasının qarşılıqlı əlaqələrinin və fəaliyyətinin perspektivləri müzakirə olunub, maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# *Levon MNATSAKANYAN:* "Minalar Ermənistanda istehsal olunub Qarabağa gətirilirdi"





Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 17-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Budəfəki məhkəmə prosesində təqsirləndirilən şəxs Levon Mnatsakanyana dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçiləri tərəfindən suallar verilib.

Təqsirləndirilən şəxs ona cinayətkar birliyin tərkibində funksiya və vəzifələr, Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində hakimiyyətin zorla ələ keçirilməsi, o cümlədən Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərmiş qondarma rejimdə hərbi birləşmələr və "ordu"nun fəaliyyəti, hərbi xidmətkeçmə qaydaları, işğal altındakı ərazilərə silahların daşınması və yerləşdirilməsi, qondarma rejimin "ordusu"nda "rütbələr"in verilməsi, "vəzifələr"ə təyinatların aparılması və "vəzifə"dən çıxarma, "ştat vahidləri"nin təsdiqi, maliyyənin ayrılması, Qarabağdakı hərbi qulluqçulara "əməkhaqqı"nın ödənilməsi, hərbi təlimlərin və toplanışların keçirilməsi, hərbi qulluqçuların məsuliyyət məsələlərinin həlli, həmin proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair suallar ünvanlanıb.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab verərkən Qarabağda hərbi xidmətə 1992-ci ildə başladığını və həmin il oktyabrın 2-də döyüşlərdə yaralandığını, 1993-cü ildən 2012-ci ilədək qondarma qurumun "ordusu"nda hərbi xidmətini müxtəlif vəzifələrdə davam etdirdiyini, sonra isə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin müavini təyin olunduğunu bildirib. 2015-ci ildə həmin vəzifədə çalışan təqsirləndirilən şəxs vaxtilə işğal edilmiş ərazilərdə mövcud olmuş qondarma rejimin "müdafiə naziri" - "ordu komandanı" "vəzifəsi"nə təyin olunduğunu deyib. Bildirib ki, sonradan Ermənistanın müdafiə naziri təyin olunan Seyran Ohanyan da əvvəlcə qondarma rejimdə müxtəlif "vəzifələr" tutub. "Qarabağdakı "vəzifələr"dən əvvəl isə o, 366-cı alayda tabor komandiri olub", - deyə Levon Mnatsakanyan əlavə edib.

O etiraf edib ki, qondarma rejimin "ordusu"nda yüksək vəzifələrə təyinatlarla bağlı qərarlar Ermənistanda verilib. Polkovnik-leytenant və daha yuxarı rütbələr üzrə vəzifələrin təyinatını Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, müdafiə naziri və prezidenti edib. "Mən isə "ordu"nun "komandiri" kimi mayor daxil olmaqla, ondan aşağı vəzifələrə təyin edə, mayora qədər rütbə verə bilərdim", - deyə o bildirib.

Təqsirləndirilən şəxs əlavə edib ki, qondarma rejimin "ordusu"nun maliyyə məsələləri Ermənistanın Müdafiə Nazirliyi, silah-sursat isə tam olaraq Ermənistan silahlı qüvvələri tərəfindən təmin edilirdi. O, daha sonra deyib: "Bizdə təchizat xidməti var idi. Təchizat xidməti qəbul edirdi, sonra hər bölməyə təqdim olunurdu. Yəni silah-sursat təminatı Ermənistanın Müdafiə Nazirliyi tərəfindən həyata keçirilirdi".

Levon Mnatsakanyan Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında bildirib ki, 2015-ci ilin iyun ayında onu qondarma rejimin "müdafiə naziri" - "ordu"nun "komandanı" vəzifəsinə Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyan təyin edib.

Təqsirləndirilən şəxs bildirib ki, əvvəlcə Ermənistanın müdafiə naziri Seyran Ohanyan onun bu "vəzifə"yə "təyin olunması" barədə təqdimat verib, S.Sarkisyan isə onu təsdiqləyib.

Mnatsakanyanın sözlərinə görə, S.Sarkisyan təyinatla bağlı onu qəbul edib. "Görüş zamanı mənə dedi ki, bu, çox önəmli vəzifədir", - deyə təqsirləndirilən şəxs əlavə edib.

Xatırladaq ki, 2015-ci ildə qondarma rejimin yaydığı "rəsmi məlumat"a görə, Levon Mnatsakanyanı "müdafiə naziri" "vəzifəsi"nə guya ovaxtkı "prezident" Bako Sahakyan təyin edib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən təqsirləndirilən şəxs Levon Mnatsakanyan bildirib ki, işğal olunmuş ərazilərdə hərbi xidmət etmiş erməni sakinlər və Ermənistan Respublikasının vətəndaşlarının törətdikləri hərbi cinayətlərin təhqiqatını Ermənistanın Hərbi Polisi, ibtidai istintaqını isə Ermənistanın Hərbi Prokurorluğu aparıb.

O, işğal edilmiş ərazilərdə "Ermənistan Respublikasının Xankəndi hərbi polis bölməsi" adlı qurumun fəaliyyət göstərməsinə isə "eyni ordunun bölməsi olduğuna görə belə bir qurum var idi" cavabını verib.

Mnatsakanyan daha sonra cinayət işlərinə Ermənistan ərazisində yerləşən Sünik hərbi məhkəməsində baxıldığını deyib.

Dövlət ittihamçısı Fuad Musayevin də suallarını cavablandıran təqsirləndirilən şəxs vurğulayıb ki, hərbi struktur eyni olduğundan hərbi qulluqçular tərəfindən xidmət etdikləri müddət ərzində törətdikləri hərbi cinayətlər işğal altındakı ərazilərdə erməni sakin, yaxud Ermənistan vətəndaşı olmasından asılı olmayaraq, Ermənistandakı analoji cinayətlər kimi eyni statusla araşdırılıb və qərar verilib.



Levon Mnatsakanyan bildirib ki, hər il Ermənistandan 7-8 min hərbi çağırışçı Azərbaycanın işğal olunmuş ərazilərində müddətli hərbi xidmətə göndərilib.

O, ildə iki dəfə hərbi çağırış olduğunu, hər çağırış zamanı 3500-4000 Ermənistan vətəndaşının işğal edilmiş ərazilərə gətirildiyini deyib.

Onun sözlərinə görə, qondarma rejimin "ordusu"nda xidmət edənlərin təxminən 70 faizi Ermənistan vətəndaşları, digər 30 faizi isə işğal edilmiş ərazilərdə yaşayan erməni sakinlər olub.

Təqsirləndirilən şəxs daha sonra qeyd edib: "Xidmət zamanı onların arasında fərq qoyulmurdu, onlar eyni komandanlığa tabe olurdular və hərbi geyimləri də eyni idi".

O, işğal edilmiş ərazilərdəki və Ermənistandakı Ermənistan hərbçilərin eyni nizamnamə ilə işlədiklərini də bildirib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən Levon Mnatsakanyan bir dəfə onlara xaricdən binokl gətirilməsindən də danışıb: "2015-ci il, yaxud ondan əvvəl idi, dəqiq bilmirəm, Ermənistana Amerikadan və ya haradansa binokllar və digər ləvazimatlar gətirmişdilər. Onu da sonradan birbaşa gətirməyi qadağan etdilər. Həmin yardımlar gəlib Ermənistan Müdafiə Nazirliyinin bazasına yığılırdı, ondan sonra paylanırdı".

Levon Mnatsakanyan deyib ki, Azərbaycanın işğal edilmiş ərazilərində "İskəndər M", "Toçka U" və "Smerç" silahları olmayıb.

Bundan başqa, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavab verən Mnatsakanyan qondarma rejimin "müdafiə naziri" olduğu vaxt, ondan əvvəl və sonra işğal altındakı ərazilərdə bu silahları görmədiyini bildirib.

O, Gəncə, Bərdə və digər ərazilərdə dinc əhalinin raket atəşinə tutulması barədə əmrin kim tərəfindən verilməsi barədə də prokurorların suallarını cavablandırıb və deyib ki, bu cür atəşlərin açılması üçün əmri Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi verə bilərdi. "Baş qərargah rəisi əgər əmr verə bilirsə, əmri verməzdən əvvəl ölkə rəhbərliyində kiminlə razılaşdırmalı idi?" sualına isə L.Mnatsakanyan "Müharibə zamanı baş qərargah rəisi bir nəfərə tabe olur, ölkənin rəhbərinə".

"Ölkənin rəhbəri deyəndə Ermənistanda kim nəzərdə tutulur?" sualına isə təqsirləndirilən şəxs "Ermənistanda baş nazirdir. Həmin vaxt baş qərargah rəisi Onik Qadparyan, baş nazir isə Nikol Paşinyan idi" cavabını verib.

O, həmin raketlərin hədəfdən yayınma ehtimalının təxminən 5-10 metr olduğunu deyib. Prokurorun "Sizcə, 44 günlük müharibə zamanı Gəncə, Bərdə və digər ərazilərdə mülki insanların öldürülməsi raketlərin hədəfdən yayınması nəticəsində olub, yoxsa hədəflər qəsdən seçilib?" sualına isə belə cavab verib: "Bir neçə dəfə olubsa, aydın məsələdir ki, nədir. Bir dəfədirsə, təsadüfdür, bir neçə dəfədirsə, təsadüf deyil... Bilmirəm".

L.Mnatsakanyan deyib ki, qondarma rejimdə "müdafiə naziri" "vəzifəsi"ndə olduğu müddətdə hansısa dəyişiklik, islahat, hadisə barədə rejimin "prezident"inə məruzə etməyib. "Ümumi təmaslar ola bilərdi, başqa heç nə. Mən Ermənistan silahlı qüvvələrinin baş qərargahına məruzə edirdim", - deyə o bildirib.

Təqsirləndirilən şəxs 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı da Ermənistan silahlı qüvvələrinin baş qərargahına məruzə etdiyini, Qarabağdakı qondarma rejimin "rəhbərliyi"nə isə heç bir məlumat vermədiyini bildirib.

L.Mnatsakanyan qeyd edib ki, qondarma rejimdə "ordu"nun inkişaf planını və digər sənədlərini Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi təqdim edir, Ermənistan rəhbəri isə təsdiqləyirdi, qondarma rejimin "prezident"inin bu məsələ ilə bağlı heç bir səlahiyyəti olmayıb.

Təqsirləndirilən şəxs ifadəsində 2020-ci ildə 44 günlük müharibə zamanı Arayik Harutyunyanın tapşırığı ilə Talış kəndi və cənub istiqamətində döyüş bölgəsində artilleriya bölməsində olduğunu da etiraf edib. "Gəlib dedim ki, orada qanunsuzluq hökm sürür, bardakdır", - deyə o əlavə edib.

O, Qarabağa minaların Ermənistandan gətirildiyini də etiraf edib və bildirib: "Ermənistanda piyada əleyhinə mina istehsal olunurdu".

Daha sonra Levon Mnatsakanyana aid sənədlər tədqiq olunub. Dövlət ittihamçısı bildirib ki, erməni dilində sənədlərin tədqiqi ilə Levon Mnatsakanyanın məhkəmədə verdiyi ifadə təsdiqlənib.

O, suallara cavabında Ruben Vardanyanı təxminən 2005-2008-ci illərdən tanıdığını da bildirib.

Məhkəmə prosesi aprelin 3-də davam etdiriləcək. Növbəti prosesdə təqsirləndirilən şəxslərə suallar veriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycanın xarici siyasətinin uğurları




## İlham Əliyevdən Ermənistana barış çağırışı

### Prezident bir daha bəyan etdi ki, sülh sazişi imzalanana qədər regionda sabitlik olmayacaq

**Ötən həftə Azərbaycan daha bir beynəlxalq toplantıya evsahibliyi etdi. Martın 13-dən 15-dək paytaxtımızda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə XII Qlobal Bakı Forumu keçirildi. Əvvəlki forumlarda olduğu kimi, bu tədbirdə də dünyanın müxtəlif ölkələrinin prezidentləri, Baş nazirləri, nazirləri, parlamentariləri, həmçinin sabiq dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak etdilər. Builki forumun mövzusu son zamanlar xüsusilə aktual olan məsələləri əks etdirdi: "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi".**

Öncə onu qeyd edək ki, bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Azərbaycanın belə forumlara evsahibliyi etməsi, ildən-ilə iştirakçıların sayında nəzərəçarpan artım ölkəmizə olan diqqət və etimadın, Prezident İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir.

Forumda "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı", "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" və "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" mövzularında panellər təşkil olundu.

Beynəlxalq tədbir dünya liderlərini, nüfuzlu ekspertləri və beynəlxalq təşkilatları bir araya gətirərək, qlobal çağırışlara qarşı birgə həll yollarının müzakirə olunduğu vacib platforma rolunu oynadı.

İldən-ilə iştirakçılarının sayı artan Qlobal Bakı Forumunun mövzularının əhatə dairəsi də genişlənir.

Prezident İlham Əliyev qlobal forum çərçivəsində "Euronews" TV kanalına müsahibəsində dünya düzəninin yenidən düşünülməsini, vacibliyini bildirib, dünyanın qlobal səviyyədə üzləşdiyi əsas çağırışların nədən ibarət olduğunu dəyərləndirib. Dövlət başçısı bildirib ki, bu gün hər kəs tərəfindən bölüşülən fikir hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesinin baş verməsidir. Çünki bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var. İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədirlər: "Əlbəttə, biz hələ ki qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq".

Regionda baş verən dəyişikliklərlə bağlı fikirlərini bildirən dövlət başçısı vurğulayıb ki, ətrafımızda baş verən böhranlardan regionumuzun qorunması vacib məsələdir. Təəssüflər ki, onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub. Hazırda nisbətən sakit dövrdür və bütün diqqətlər buna yönəlməlidir: "Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi, qonşuluq şəraitində yaşamağa çalışmalıyıq. Bəli, biz o zaman müstəqil dövlətlər deyildik, gələcəyimizi planlaşdırmaq iqtidarında deyildik və böyük mənada mərkəzi sovet hakimiyyətindən asılı vəziyyətdə idik. Ancaq ən azından Cənubi Qafqaz respublikaları arasında fəal təmaslar var idi. Yəni biz belə bir təcrübəyə malikik və sadəcə, bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik".

Ermənistanla Azərbaycan arasında imzalanması gözlənilən sülh sazişinə gəlincə isə, İlham Əliyev qalib komandan kimi reallıqları açıqlayıb. "Müharibə yalnız sülh sazişi imzalananda bitir", - deyən dövlət başçısı qeyd edib ki, hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, Ermənistanla sülh müqaviləsi yoxdur.

Düzdür, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Göründüyü kimi, qalib tərəf olmasına baxmayaraq, Azərbaycan Prezidenti yenə də humanizm prinsiplərini əsas tutaraq Ermənistanı sülh sazişini imzalamağa dəvət edir.

Bir sözlə, qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkə qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Beynəlxalq təşkilatlar ya çox zəifləyib, ya da iflic vəziyyətinə düşüblər

### Gələcəyin dünyası ikitərəfli və regional əməkdaşlıqlara əsaslanacaq

**"Prezident İlham Əliyev "Euronews" TV kanalına müsahibəsi zamanı qlobal dəyişikliklər və yeni dünya nizamı barədə fikirlərini bildirib, hazırda dünyada yaşanan geosiyasi transformasiyaya və Cənubi Qafqazda vəziyyətlə bağlı məsələlərə toxunub. Uzun illər mövcud olmuş beynəlxalq qaydalar artıq keçmişdə qalıb və yeni nizam formalaşma mərhələsindədir. Bəs bu yeni qaydalar necə müəyyənləşdirilir? Onları kim müəyyənləşdirir? Dünya siyasəti hansı istiqamətdə gedir? Bu suallar hələ də açıq qalır və qlobal ictimaiyyətin əksəriyyəti bu suallara aydın cavab tapa bilmir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, burada aydın olan bir neçə əsas məqam var. Dövlətlərin daxili gücünə arxalanması zərurəti artıq hər bir ölkənin öz daxili siyasətinə və iqtisadi imkanlarına daha çox önəm verməsini labüd edir. Xarici yardımlara, hətta beynəlxalq hüququn qoruyacağına olan inam və etimad azalır. Çünki beynəlxalq hüquq çox vaxt selektiv şəkildə tətbiq olunur və ədalət prinsiplərinə əsaslanmır. "Azərbaycan bu reallığın ən bariz nümunələrindən biridir. Otuz il ərzində beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, real addımlar atılmadı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qaldı və işğalın qarşısını almaq üçün heç bir beynəlxalq mexanizm işləmədi. Azərbaycan yalnız öz daxili resurslarına güvənərək ərazi bütövlüyünü bərpa etdi və ədaləti təmin etdi. Bu təcrübə göstərdi ki, hər bir ölkənin gələcəyi öz əlindədir və heç bir beynəlxalq institut həmin ölkənin suverenliyini onun qədər qoruya bilməz", - deyə deputat əlavə edib.

P.Vəliyeva qeyd edib ki, mövcud qlobal böhranlar - Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə gərginliklər, Asiya və Afrikada siyasi çalxalanmalar beynəlxalq təşkilatların ya çox zəif, ya da tam iflic vəziyyətə düşdüyünü açıq şəkildə göstərir. BMT və ATƏT kimi qurumlar dünyada baş verən böhranların qarşısını almaqda tam uğursuzdurlar. Avropa İttifaqı və NATO yalnız öz maraqlarına uyğun məsələlərdə aktiv olurlar, digər hallarda isə ciddi təsir göstərmirlər. Beynəlxalq insan haqları təşkilatları isə bəzi hallarda siyasi təsir aləti kimi istifadə olunur. Nəticə etibarilə, dövlətlər çoxtərəfli institutlardan daha çox ikitərəfli və regional əməkdaşlıqlara üstünlük verməyə başlayırlar, çünki bu təşkilatlar tez-tez siyasi və iqtisadi maraqlara xidmət edir, obyektiv və neytral mövqedən çıxış edə bilmirlər.

Deputat vurğulayıb ki, hazırkı proseslər dünyanın hələlik böyük transformasiyanın ilkin mərhələsində olduğunu göstərir: "Bir çox məsələlər gələcək hadisələrin gedişatından asılı olacaq, lakin bəzi tendensiyalar artıq aydın müşahidə olunur. Dövlətlər beynəlxalq qurumlardan daha çox regional və ikitərəfli əməkdaşlıqlara üstünlük verəcək. Qlobal sabitlik uzun müddət bərpa olunmayacaq və dövlətlər öz təhlükəsizliklərini özləri təmin etməli olacaqlar. Geosiyasi bloklar zəifləyəcək və daha çevik, maraq əsaslı koalisiyalar yaranacaq. İqtisadi və texnoloji müstəqillik əsas prioritet olacaq. Azərbaycan bu dəyişən dünya nizamında sabit, güclü və müstəqil siyasət yürüdərək öz milli maraqlarını qorumağa davam edəcək. Biz artıq daxili resurslarımıza güvənərək uğur qazandıq və gələcəkdə də bu strategiya ilə irəliləyəcəyik. Biz sübut etdik ki, müstəqil siyasət və güclü daxili resurslar ölkənin suverenliyini təmin edən əsas faktorlardır".

Deputat əlavə edib ki, beynəlxalq təşkilatlardan real nəticə gözləmək mümkün deyil. Gələcəyin dünyası daha çox dövlətlərarası ikitərəfli və regional əməkdaşlıqlara əsaslanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan Cənubi Qafqaza dayanıqlı sülh və sabitlik gətirmək istəyir

### Ermənistanla fərqimiz də bundadır

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün başlamış danışıqlar rəsmi İrəvanın ölkəmizin ədalətli şərtlərinə əməl etmək istəməməsi səbəbindən bir neçə ildir ki, uzanır. Ermənistan sülh müqaviləsini imzalamamaq üçün müxtəlif bəhanələr gətirir, heç bir əsası olmayan yalanlar uydurur. Bu yalan və bəhanələrdən artıq dünya da bezib.**

Qəribəsi isə odur ki, Ermənistan rəhbərliyi üzdə özünü sülh tərəfdarı kimi göstərir, arxada isə silahlanmaya üstünlük verir. Başqa sözlə, dil sülh deyir, əl başda Fransa olmaqla Qərb ölkələrindən, Hindistandan silah daşıyıb gətirir. Təbiidir ki, rəsmi İrəvan bu silahları muzeydə nümayiş etdirmək üçün almır. Amma Ermənistan nə qədər ordusunu silahlandırsa da, gec-tez Azərbaycanla sülh müqaviləsini imzalamağa məhkumdur. Ona görə ki, bu gün sülh Azərbaycandan çox Ermənistana lazımdır, ən azından Cənubi Qafqazın "dalan ölkə"si statusundan qurtulmaq üçün. O üzdən nə qədər bəhanələr gətirsə də, danışıqlar prosesindən yayınsa da, Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülh sazişini imzalamaqdan başqa yolu yoxdur.

Ötən il iki ölkə arasında keçirilən bir sıra görüşlərdə müəyyən uğurlar əldə olunsa da, Ermənistanın törətdiyi təxribatlar səbəbindən sülh müqaviləsi imzalanmadı. Bütün ümidlər növbəti ilə dikildi. 2025-ci ilin ilk günlərindən Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması məqsədilə müəyyən görüşlər keçirildi, müvafiq müzakirələr aparıldı, ümidverici nəticələr əldə olundu. Hətta bu nəticələr ilin sonunadək iki ölkə arasında sülh müqaviləsinin imzalanması ümidlərini verir.

Amma nə edəsən ki, rəsmi İrəvanın ipi ilə quyuya düşmək risklidir. Ona görə də yaxşı olardı ki, Ermənistan hakimiyyəti erməni cəmiyyətini bu mühüm prosesə hazırlasın, müəyyən zəruri təbliğat işləri aparsın, anlatsın ki, müharibədən məğlub çıxmış bir ölkənin sülh sazişinin imzalanmasını yubatması qəbuledilməzdir, sülhə, əmin-amanlığa alternativ olaraq müharibəni seçməyin aqibəti növbəti faciədir. İşğalçılıq siyasəti yürüdən Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətini təkcə indi hakimiyyətdə olanlar deyil, sıravi vətəndaşlar da unutmamalıdırlar. İndi sülh sazişi ətrafında düşünmək, götür-qoy etmək üçün yaxşı şans var və bu şans vaxtında qiymətləndirilməlidir. Çünki sülhə, qarşılıqlı əməkdaşlığa zəmin yaradacaq bu fürsət sabah olmaya da bilər.

Deyəsən, son vaxtlar hiss olunur ki, Ermənistan düşdüyü ağır vəziyyəti düzgün anlamağa çalışır. Ona görə də danışıqlar prosesində müəyyən ümidverici addımlar atır. Verilən məlumatlara görə, artıq Azərbaycan-Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Martın 13-də Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanla sülh sazişi üzrə danışıqların bitməsi ilə bağlı bəyanat yayıb. Bəyanatda Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığı qeyd olunub: "Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq. İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

XII Qlobal Bakı Forumunda çıxış edən Prezident İlham Əliyev sülh müqaviləsinin imzalanması ilə bağlı fikirlərini iştirakçılarla bölüşərək demişdir: "Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən, razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıb".

Amma Ermənistanda baş verən son hadisələr bir daha göstərir ki, bu ölkədə heç də hamı sülhü dəstəkləmir. Hakimiyyətin, xalqın və kilsənin dedikləri üst-üstə düşmür. Belə olmasaydı, sülh müqaviləsini imzalamağa yaxın olduğu bir vaxtda erməni kilsəsi sərsəm-sərsəm antisülh bəyanatları verməzdi. Katalikos II Qaregin xalqı mübarizəyə səsləyərək bildirib ki, Ermənistan guya təhlükədədir və hər an Azərbaycan onu işğal edə bilər. Tarixboyu şahidi olmuşuq ki, din sülh, həmrəylik, şəfqət ideyalarını dəstəkləyib, müharibələrin, qarşıdurmaların əleyhinə çıxış edib. Erməni kilsəsində və keşişlərində isə belə mövqe heç vaxt müşahidə olunmayıb. Onlar zaman-zaman həmişə xalqını qəsbə, işğala, separatçılığa, müharibəyə, qan tökməyə çağırıb. Qarabağda antiterror əməliyyatına qədər də kilsə xadimləri erməniləri qan tökməyə səsləyirdi. Deyəsən, onlar başda II Qaregin olmaqla bu gün də adət-ənənələrinə sadiqdirlər. Əslində isə, baş keşişin həqiqətdən, reallıqdan uzaq olan bu təbliğatı Paşinyanın əleyhinədir. Çünki neçə vaxtdır ki, kilsə baş nazirlə yola getmir.

Azərbaycan bu gün Ermənistana hücum etməyə hazırlaşmır. Ümumiyyətlə, tarixi faktlar da sübut edir ki, Azərbaycan heç vaxt Ermənistana hücum etməyib. Əksinə, həmişə onların bizim torpaqlarda gözü olub. Tarixin bir çox dönəmlərində isə işğal məqsədilə hücumlar da ediblər. Zamanında da layiqli cəzasını alıblar. Buna baxmayaraq, Azərbaycan qalib ölkə kimi Ermənistanla danışıqları davam etdirmək, Cənubi Qafqaza sülh və sabitlik gətirmək istəyir. Elə Ermənistanla fərqimiz də bundadır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*




# Hökumət hesabat verdi

## Ötən il qarşıya qoyulmuş bütün sosial-iqtisadi hədəflərə nail olunub

**Bu gün güclü iqtisadiyyat Azərbaycanın hərtərəfli inkişafının, milli maraqlar üzərində prinsipial siyasətinin təməlində dayanan əsas amilə çevrilib. Bu amil hər il qazanılan iqtisadi uğurlarla ehtiva olunur və deməyə əsas verir ki, qarşıdakı illərdə Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, neft-qaz amilindən asılılıq daha da azalacaq.**



İqtisadi inkişaf baxımından ötən 2024-cü ilin də uğurlu olduğu Nazirlər Kabinetinin Milli Məclis qarşısında verdiyi illik hesabatında öz əksini tapıb. Hökumətin iqtisadiyyatın şaxələndirilməsi, xüsusən nəqliyyat-tranzit potensialının reallaşdırılması, kənd təsərrüfatının, turizmin, rəqəmsal və "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi istiqamətində gördüyü işlər iqtisadiyyatın dayanıqlı olmasına xidmət edir. Ötən il ümumi daxili məhsul istehsalı 4,1 faiz artıb və ya mütləq rəqəm ifadəsində 126 milyard manat olub. ÜDM istehsalı neft-qaz sektorunda 0,3, qeyri-neft-qaz sektorunda 6,2, o cümlədən qeyri-neft-qaz sənayesində 7,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat təşkil edib. Azərbaycanın valyuta ehtiyatları il ərzində 5 milyard dollardan çox artaraq 72 milyard dollara çatıb. Baş nazir Əli Əsədov 2024-cü ildə dövlət büdcəsi gəlirlərinin təxminən 37,2 milyard, xərclərinin isə 37,7 milyard manat olduğunu söyləyib.

Məlumdur ki, Azərbaycanda sosial proqramların icrası, o sıradan əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin təmin edilməsi Prezident İlham Əliyev tərəfindən strateji vəzifə kimi müəyyənləşdirilmişdir. Son illər bu istiqamətdə əhəmiyyətli irəliləyişlər əldə edilib. Belə ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən yeni iş yerlərinin yaradılması, sosial ödənişlərin və əməkhaqlarının artırılması istiqamətində mütəmadi olaraq sistemli layihələr həyata keçirilir, ardıcıl addımlar atılır. Bütün bunlar hökumətin ötənilki hesabatında rəqəmlərlə belə ifadə olunub: dövlət büdcəsi xərclərinin 39 faizi və ya 14,6 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə istiqamətləndirilib. Orta pensiya məbləği 12, yaşa görə pensiya 11,3 faiz artıb. Yaşayış minimumu ölkə üzrə 270 manat müəyyən edilib və bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 475 manat olub. Qeyd edək ki, son bir neçə il ərzində 4 sosial paket həyata keçirilib və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsait xərclənib.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və suverenliyin təmin olunması yolunda canını fəda etmiş şəhidlərin ailələrinə, qazilərə və müharibə veteranlarına yüksək diqqət və qayğı göstərilməsi hər zaman dövlət siyasətinin prioritet məsələsi olduğu aydındır. Bu baxımdan, İkinci Qarabağ müharibəsində şəhid olanların ailələrinə, eləcə də yaralanan əsgərlərimizə dəstək verilməsi üçün bir sıra mexanizmlərin hazırlanıb həyata keçirilməsi böyük sosial əhəmiyyət daşıyır. Bu, şəhid ailələrinin və qazilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara fərdi evlərin, mənzillərin verilməsi və digər bir sıra istiqamətlərdə atılan addımlardan da aydın görünür. Eyni zamanda qazilərin sağlamlığının bərpası, onların müasir protezlərlə təminatı, reabilitasiya kurslarını keçməsi üçün əməli işlər görülür. Təkcə ötən il şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 800 mənzil verilib, müharibə əlillərinə 93 avtomobil təqdim edilib, hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 milyon manat vəsait ayrılıb.

Artıq beşinci ildir Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri aparılır. Məqsəd regionu cəmiyyətin ən sağlam və abad yaşayış zonasına çevirmək, burada dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaratmaqdır. Çünki hərtərəfli, təhlükəsiz və əlverişli həyat şəraitinin olması vətəndaşların əbədi məskunlaşması üçün əsas şərtdir. Buna görədir ki, indiyəcən Qarabağ və Şərqi Zəngəzurda böyük qayıdışa dair xeyli işlər görülüb və həmin istiqamətdə tədbirlər bir an da olsa, səngimir. Daşı daş üstdə qalmayan yaşayış məntəqələrimiz yenidən qurulur, tikiləcək evlərin, binaların, məktəblərin, xəstəxanaların təməli qoyulur, müasir infrastruktur yaradılır. Təkcə 2024-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda 10,2 mindən çox keçmiş məcburi köçkün evlərlə təmin edilib. Onların sosial müdafiəsinin təmin edilməsi məqsədilə dövlət büdcəsindən 329 milyon manat vəsait yönəldilib. Ümumilikdə 2021-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard, o cümlədən 2024-cü ildə 5 milyard 347 milyon manat vəsait ayrılıb.

Azərbaycan özünün uğurlu enerji siyasəti ilə bütün dünyada etibarlı tərəfdaşa çevrilmişdir. Ənənəvi enerji növlərinə alternativ olaraq, ölkəmiz bərpaolunan enerji növlərini də inkişaf etdirir. Azərbaycanın başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratmış və hazırda qlobal enerji layihələrinə çevrilmişdir. Nəticədə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolu daha da güclənmişdir. COP29 çərçivəsində Azərbaycanda İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi yaradılmış və enerji sahəsində həyata keçirilən layihələr üzrə beynəlxalq sazişlər imzalanmışdır. Həmin sənədlərə görə, "Cənub qaz dəhlizi" vasitəsilə qaz təchizatının ixrac coğrafiyası genişləndirilir. Hazırda bu kəmərlə Azərbaycan qazını alan ölkələrin sayı 12-dir.

2024-cü ildə həmçinin Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin və ölkəmizin tranzit potensialının artırılması üçün bir çox layihə reallaşdırılıb. Nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33 milyon ton təşkil edib. Bakı-Tbilisi-Qars xətti 2024-cü ilin may ayında tamamlanaraq istismara verilib, xəttin illik yükaşırma həcmi 1 milyon tondan 5 milyon tona çatdırılıb. Ötən il ölkədə avtomobil və dəmir yollarının, həmçinin yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası da davam edib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş olub

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Mentorluq Proqramı çərçivəsində dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Nicat Qocayev və Eyyub Fətəliyev ilə görüşüb.**



Müsabiqə qaliblərini təbrik edərək onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulayan nazir qaliblərin peşəkar potensialının inkişafına dəstək göstərilməsi, təcrübə imkanlarını artırmaları üçün nazirlik tərəfindən zəruri şərait yaradılacağını qeyd edib.

A.Əliyev ölkənin sosial-iqtisadi həyatına yeni nəsil peşəkarların qazandırılmasında Mentorluq proqramının önəmini, qaliblərin bilik və təcrübələrindən gələcəkdə daha səmərəli istifadə üçün də dəstək olacağını bildirib.

Son illər əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan ardıcıl islahatlar, sosial müdafiə və aktiv məşğulluq proqramları, DOST konsepsiyası barədə müsabiqə qaliblərinə məlumat verilib. Sosial sahədə innovativ yanaşmaların, rəqəmsal həllərin geniş tətbiqi işləri, sosial hədəflər diqqətə çatdırılıb.

Qaliblər Mentorluq proqramı çərçivəsində karyera hədəflərini daha dəqiq müəyyənləşdirmək imkanı qazandıqlarını və gələcək fəaliyyətlərində sosial layihələrə daha çox töhfə verməyə çalışacaqlarını bildiriblər.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

Sayca beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 18 dekabr 2024-cü il tarixində müvafiq sərəncam imzalanıb.

## Qeyri-neft sektorunda 1,7 milyon nəfərdən çox adam çalışır

**Cari il martın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 313,2 min nəfər olub. Onlardan 5 milyon 30,4 min nəfərini məşğul əhali təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, fevralın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 757 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 879,5 min, qeyri-dövlət sektorunda isə 877,5 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 31,6 min, qeyri-neft-qaz sektorunda isə 1 milyon 725,4 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,4 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,5 faizi emal sənayesində, 6,4 faizi tikintidə, 2,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,7 faizi təhsil, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3 faizi istirahət, əyləncə və incəsənət, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

2025-ci ilin yanvar ayında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 142,3 saat təşkil edib. Mart ayının 1-i vəziyyətinə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 230,3 min nəfər olub, onların 47,9 faizini qadınlar təşkil edib. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 438,6 manat olub.

## Əlilliyi olan şəxslərə 21,3 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-fevral aylarında əlilliyi olan şəxslərə 21,3 min reabilitasiya vasitəsi verilib.**

Onlardan 1,5 mini təkərli oturacaq (o cümlədən 35-i mühərrikli təkərli oturacaq), 497-si aşağı və yuxarı ətraf protezi, habelə 237-si eşitmə aparatı, 713-ü əsa, qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 642 cüt protez və 901 cüt ortopedik ayaqqabı, 25 korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Bu ilin iki ayı ərzində ümumilikdə 3,4 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

## Bakı-Tbilisi-Ərzurum kəməri ilə 3 milyard kubmetrdən çox qaz nəql edilib

**Yanvar-fevral aylarında Azərbaycandakı magistral təbii qaz kəmərləri ilə 7 milyard 108,3 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 3,2 faiz azalma müşahidə olunub.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, iki ayda qaz nəqlinin 48 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə təbii qaz nəqli 4,83 faiz azalaraq 3 milyard 412,9 milyon kubmetr təşkil edib.




# Azərbaycan hava nəqliyyatında da mühüm tranzit ölkəyə çevriləcək

**Azərbaycan tranzit ölkə kimi əlverişli coğrafi məkanda yerləşir. Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən ən qısa marşrutlar ölkəmizin üzərindən keçir. Yeri gəlmişkən, xatırladaq ki, tarixən də Azərbaycan İpək yolu ticarət marşrutunda önəmli ölkə olub.**



Hazırda strateji ticarət yolunun seçilməsində üç əsas şərt - təhlükəsizlik, qısa vaxt və ucuz tarif əsas rol oynayır. Azərbaycan bu üç şərtin ölkəmizdə icra olunması ilə yanaşı, region ölkələrinin də buna qoşulması üçün səylər göstərir. Dövlətimizin başçısının dediyi kimi, nəqliyyat infrastrukturunun formalaşmasında region ölkələri ilə yaxşı əlaqə qurmaq və birgə fəaliyyət göstərmək mühüm şərtdir. Nəqliyyat dəhlizləri ilə bağlı bir çox regional və qlobal tədbirlərin Azərbaycanda keçirilməsi də ölkəmizin bu sahədə aktiv fəaliyyət göstərməsinə əyani sübutdur.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dünyada müxtəlif sahələri əhatə edən ən əhəmiyyətli tranzit ölkəsidir. Ölkəmiz təkcə nəqliyyat deyil, həm də neft-qaz, enerji və "yaşıl enerji" üzrə də etibarlı tranzit ölkə kimi tərəfdaşlarının etimadını qazanıb. İki mühüm beynəlxalq marşrutun - Orta dəhliz və "Şimal-Cənub" marşrutu üzrə qovşaq ölkə olması bizə qlobal səviyyədə strateji dövlət statusunu qazandırıb.

Azərbaycanda formalaşan daha bir nəqliyyat infrastrukturu ölkəmizə bu sahədə əlavə dividendlər qazandıracaq. Hava nəqliyyatında da tranzit ölkə statusu qazanması Azərbaycanın beynəlxalq arenadakı nüfuzunu daha da artıracaq. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, Azərbaycanın hava nəqliyyatında da mühüm tranzit ölkə olmasına xüsusi fikir verir, bu məqsədlə infrastrukturun yaradılmasına ciddi diqqət yetirir. Dövlət başçısının sərəncamları ilə mövcud hava limanları yenidənqurma işləri aparılaraq beynəlxalq standartlara uyğunlaşdırılıb. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə 2 yeni beynəlxalq əhəmiyyətli hava limanları tikilib, 3-nün isə bu il açılması gözlənilir. Ümumiyyətlə, dövlət başçısının təşəbbüsü ilə 2013-cü ildən ötən 11 il ərzində ölkəmizdə beynəlxalq aeroportların sayı 8-ə çatıb və Laçında tikilən 9-cu, qeyd etdiyimiz kimi, tamamlanmaq üzrədir. Yeni dövlət proqramının icrası isə rəsmiyyətin sadələşdirilməsi, yükün, baqajın, poçt daşımaları hərəkətinin asanlaşdırılması, gecikmələrin qarşısının alınması, hava əlaqələrinin sürətləndirilməsi, sərnişinlərin rahatlığının və sərnişin məmnunluğunun artırılması ilə ölkəmizin bütün hava limanlarının aktivliyini yüksəldəcək, hava daşımaları HAB-ı kimi Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək.

İqtisadi İslahatların Təhlili və Kommmunikasiya Məkrəzinin şöbə müdiri Aqil Əsədov deyir ki, hava nəqliyyatı ilə daşımaların sadələşdirilməsi ölkənin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu, daxili və beynəlxalq ticarət əlaqələrinin şaxələnməsinə, logistika proseslərinin sürətlənməsinə və xarici investisiyaların cəlb edilməsinə əlavə imkanlar yaradır. Hava yolu ilə daşımaların asanlaşdırılması həm də səyahətləri daha rahat və sürətli edərək turizm sektorunun inkişafına müsbət təsir göstərir. Hava nəqliyyatının genişləndirilməsi ölkəyə əlavə gəlirlərin əldə edilməsinə, yeni iş yerlərinin yaradılmasına və regionlar arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə də stimul verə bilər. Bu növ infrastrukturun inkişafı ölkənin strateji mövqeyini və beynəlxalq əlaqələrini gücləndirərək qlobal bazarda daha rəqabətqabiliyyətli olmağa imkan yaradır.

"Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir", - deyən Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son dövrlər mühüm sənədlərin qəbulu sahənin imkanlarını daha da genişləndirir. Eyni zamanda qəbul edilən qərarlar, proqram və layihələr nəqliyyat sektoruna dövlətin diqqət və qayğısını nümayiş etdirməklə yanaşı, həm də Avroatlantik məkanın aparıcı nəqliyyat-tranzit qovşağı kimi Azərbaycanın uzunmüddətli hədəflərə istiqamətləndiyini göstərir. Bütün bunlar paralel olaraq etibarlı tərəfdaş kimi dövlətimizin mövqeyini möhkəmləndirir, Azərbaycanın öz öhdəlik və hədəflərinə sadiqliyini ifadə edir.

A.Əsədov bildirir ki, "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqram"nın təsdiq edilməsi ölkəmizin nəqliyyat-tranzit imkanlarını daha da artırmaqla bərabər, Azərbaycanı hava daşınmaları HAB-ına çevirəcək. Bu proqram qeyd olunan sahədə nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması, kadr hazırlığı və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsinə səbəb olacaq. Onun sözlərinə görə, dövlət proqramının həyata keçirilməsi nəticəsində hava daşımaları üzrə proseslər asanlaşacaq və əməliyyatların səmərəliliyinin artmasına nail olunacaq, sərhədlərin təhlükəsizliyi gücləndiriləcək, ticarət və turizmin inkişafına, həmçinin ümumi iqtisadi inkişafa və məşğulluğa töhfə veriləcək, keyfiyyətli aviasiya xidmətlərinin əlçatanlığı təmin ediləcək.

"Ümumilikdə 10 məqsədi və 10 hədəfi əhatə edən proqram qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və müvafiq infrastruktur təminatının təkmilləşdirilməsi ilə reyslərin sayının artırılmasını və daşıma coğrafiyasının genişləndirilməsini təmin edəcək. Dövlət proqramı həm də mülki aviasiya daşımaları ilə bağlı mühüm qlobal əhəmiyyətə malik, 1944-cü ildə qəbul edilmiş Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın tələblərindən irəli gələn məsələləri özündə cəmləşdirir", - deyə A.Əsədov bildirib. Bu proqram həmçinin hava daşımalarının sadələşdirilməsi və sərhəd nəzarəti ilə bağlı proseslərin səmərəli idarə edilməsində, eləcə də beynəlxalq hava daşımalarının sürətləndirilməsində mühüm rol oynayır. Proqram ölkəmizin hava nəqliyyatında təmin edilmiş dinamikanı daha da sürətləndirəcək, daşınmaları daha da intensivləşdirəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## AP-nin qətnaməsi anti-Azərbaycan ritorikasının pik həddidir

**"Son dövrlərdə Avropa Parlamentinin ölkəmizə qarşı qəbul etdiyi qətnamələr Azərbaycan ictimaiyyətində ciddi narahatlıq doğurur. Bu qətnamələr ölkəmizin müstəqil siyasətinə və daxili işlərinə müdaxilə kimi qiymətləndirilir və Azərbaycan hökumətinin həyata keçirdiyi islahatları təhrif edir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, martın 13-də Avropa Parlamentinin qəbul etdiyi qətnamə Azərbaycanın beynəlxalq hüquq və suverenlik prinsiplərinə qarşı haqsız bir addımdır. Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bu qətnaməni qəti şəkildə rədd edərək Avropa Parlamentinə etiraz məktubu göndərib. Komitə qətnamənin əsassız və qeyri-obyektiv olduğunu vurğulayaraq AP-nin Azərbaycanın müstəqil siyasətini və beynəlxalq mövqeyini hədəf aldığını qeyd edib. "Milli Məclis belə qətnamələrin Azərbaycanla Avropa Parlamentinin münasibətlərinə mənfi təsir göstərəcəyini və ikitərəfli əməkdaşlığına zərər verəcəyini bildirərək, AP-ni obyektiv və ədalətli yanaşmaya çağırıb. Hazırda məhkəmə qarşısına çıxarılan şəxslər hərbi əsirlər deyil, Azərbaycan qanunvericiliyini pozmuş, ədalətli və şəffaf məhkəmə prosesi çərçivəsində məsuliyyətə cəlb edilmiş təqsirləndirilən şəxslərdir. Bütün tərəflər belə bir reallığı qəbul etməlidirlər ki, Azərbaycan öz xalqını və ərazisini qanunsuz işğaldan və silahlı separatizmdən qorumaq kimi suveren hüququnu həyata keçirir. Beləliklə, Avropa Parlamentinin qətnaməsi sülhü və ya ədaləti deyil, düşmənçiliyi qızışdırmaq və birtərəfli siyasi gündəliyi təşviq etmək cəhdidir", - deyə siyasətçi əlavə edib.

Onun sözlərinə görə, qətnamədə əks olunan bəzi məsələləri qurumun anti-Azərbaycan ritorikasının pik həddi hesab etmək olar. Burada yenə də erməni sevgisi, azərbaycanofobiya və riyakarlıq açıq-aydın hiss olunur. Xatırladaq ki, Bakıda məhkəməsi keçirilən şəxslər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilirlər. Aydındır ki, qatı ermənipərəst mövqeyi ilə seçilən Avropa Parlamentinin üzvləri üçün bir "həqiqət" var ki, o da qərəz və ikili yanaşmadır. Dəfələrlə bunun şahidi olmuşuq. Məhkəməyə təzyiq yolunu seçən Avropa Parlamentinin üzvləri hər vəchlə çalışırlar ki, təqsirləndirilən şəxslər qərardad çıxarılmadan azad olunsunlar. Demək olar ki, dünya məhkəmə tarixində belə hal baş verməyib.

K.Bayramov qeyd edib ki, Avropa parlamentariləri tərəfindən barələrində konkret ittihamlar olan şəxslərin hərbi əsir kimi qələmə verilməsi hiddət doğurur: "Halbuki həmin şəxslər konkret cinayət əməllərinə görə məhkəmə qərarları əsasında saxlanılıblar. Bu şəxslərin "hərbi əsir" kimi qələmə verilməsi həm cinayət-prosessual qanunvericiliyin tələblərinə, həm də beynəlxalq hüququn prinsiplərinə tamamilə ziddir".

Deputat diqqətə çatdırıb ki, Milli Məclisin sözügedən komitəsi avropalı parlamentariləri yenidən düşünməyə, revanşist qüvvələri dəstəkləməməyə və qarşılıqlı hörmət və anlaşmaya əsaslanan konstruktiv dialoqa çağırır: "Avropa Parlamentini sülhə və barışığa qarşı yönələn siyasi motivli hərəkətlərə yol verməkdənsə, ədalət və suverenlik prinsiplərinə hörmət bəsləməyə çağırırıq. Yalnız haqq-ədalət və qarşılıqlı anlaşma sayəsində Cənubi Qafqazda həqiqi sabitlik əldə edilə bilər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti Ermənistana təzyiq etməyə çağırıb

**"Məlum olduğu kimi, Ermənistanın 1987-ci ildə Qafan rayonunda azərbaycanlılara qarşı törətdiyi zorakılıq ilə başlayaraq 30 ildən artıq davam etmiş Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycana külli miqdarda ziyan vurulub və azərbaycanlılar böyük müsibətlərə düçar olublar. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə münaqişə arxada qalıb, bölgədə davamlı sülhün və ədalətin bərqərar olması üçün imkan yaranıb. Məhz Azərbaycan Respublikasının təşəbbüsü ilə iki dövlət arasında bu məsələlər üzrə siyasi proses başlayıb".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin bildirilib: "Bu günlərdə xəbər verildiyi kimi, münasibətlərin qaydaya salınması üzrə çoxsaylı mövzuların bir qismini əhatə edən saziş layihəsi üzrə danışıqlarda Ermənistan Azərbaycanın açıq qalan iki maddə üzrə təkliflərini qəbul edib.

Lakin bu, kifayət deyil. Ermənistan tərəfi qalıcı sülhün və ədalətin bərqərar olunması üçün qalan digər məsələlər üzrə də öz üzərinə düşəni etməlidir. Bunların sırasına qərbi azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmaq, maneəsiz tranzit öhdəliyini yerinə yetirmək, Azərbaycana qarşı ərazi iddialarını öz konstitusiyasından və qanunlarından çıxarmaq, ATƏT-in Minsk qrupunun ləğv olunması üçün müraciət göndərmək, Azərbaycan ərazilərinin işğalına, ona külli miqdarda ziyan vurmasına və azərbaycanlılara qarşı zorakılıq törətməsinə görə məsuliyyətini etiraf etmək, təzminat ödəmək, öz ərazisində qondarma rejimin bütün "təsisatları"nı ləğv etmək, hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymaq, silahlanma proqramını dayandırmaq və aldığı silahları geri qaytarmaq daxildir.

Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti öz üzərinə düşənləri yerinə yetirmək üçün Ermənistana təzyiq etməyə çağırır".

## Avropa Parlamentinin ölkəmizə qarşı növbəti qərəzi

### Adı korrupsiya qalmaqalında hallanan bu qurum köhnə xislətindən əl çəkmir

**Çoxillik Ermənistan-Azərbaycan münaqişəsi dövründə bir sıra Qərb dövlətlərinin və onların nüfuz dairəsində olan və maliyyələşdirdikləri beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli mövqelərinə, avantürist siyasətlərinə çox şahidlik etmişik. İşin maraqlı olan tərəfi budur ki, Azərbaycanın beynəlxalq aləmdə və regionda nüfuzu artdıqca, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin olunmasında əsas aktor kimi çıxış etdikcə özünü beynəlxalq aləmdə arbitr kimi göstərməyə çalışan beynəlxalq təşkilatlar ölkəmizə qarşı qərəzli fəaliyyətlərini daha da gücləndirirlər. İşğal altında olan torpaqlarımız azad olunduqdan, ölkəmiz müstəqilliyini və suverenliyini tam bərpa etdikdən sonra hər addımda Azərbaycana qarşı nifrət püskürən Avropa Parlamenti bütün gücünü işə salaraq ölkəmizə qarşı "qətnamə" istehsal etməklə məşğuldur.**




Martın 13-də Avropa Parlamenti növbəti dəfə qərəzli, şər-böhtan dolu qətnamə qəbul edib. Yeri gəlmişkən, qeyd edək ki, qəbul edilən bu "yeni" qətnamə Avropa Parlamentinin özünüifşası deməkdir. Sözdə dünyanın "qlobal problemlər"ini həll etməyə mükəlləf olan bu beynəlxalq qurumun, işdə boş-boş qeybətlə məşğul olmaqdan uzağa gedə bilmədiyini, siyasi maraqları naminə rüşvətlə, dirijor çubuğunun işarəsi ilə fəaliyyət göstərdiyini bir daha təsdiq etdi. Son zamanlar adı rüşvət və korrupsiya qalmaqalı ilə daha çox hallanan Avropa Parlamentinin yeni qətnaməni qəbul etməsində erməni puluna satılmış deputatların da "xidmət"ləri böyükdür. Avropa İttifaqı bir daha beynəlxalq hüquq normalarını ayaqlar altına ataraq separatçılara və Azərbaycana qarşı təxribatlarda iştirak edən şəxslərə himayədarlığını nümayiş etdirib.

Avropa Parlamentində qətnaməyə səs verən deputatlar bilməmiş deyillər ki, münaqişə 1987-ci ildə Ermənistandan azərbaycanlıların deportasiyası ilə başlanıb. Bu əməliyyat zamanı 220 azərbaycanlı amansızlıqla qətlə yetirilib, 1100-dən çoxu yaralanıb, 250 min insan isə yurd-yuvasından zorla qovulub. Avropa parlamentariləri bilirlər ki, 1989-cu ildə Ermənistan parlamenti Dağlıq Qarabağla birləşmək haqqında qərar qəbul etməklə separatçılığa rəsmi dəstək verib. Bu azmış kimi, Ermənistan xarici hərbi birləşmələrin və terror qruplaşmalarının köməyi ilə irimiqyaslı işğalçılıq əməliyyatı keçirərək Dağlıq Qarabağ və ətrafdakı 7 rayonun işğalını həyata keçirib. Bu işğal etnik təmizləmə siyasəti ilə müşayiət olunub, nəticədə 1 milyon soydaşımız qaçqın və məcburi köçkünə çevrilib.

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib. Bu qətnamələrin hər birində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu təsdiq edilib və işğalçı qüvvələrin ölkəmizin ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub. Ermənistanın təcavüzkar siyasəti pislənib. Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul etdiyi bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi əsaslarını müəyyən edib. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazilərin zəbt edilməsinin qəbuledilməzliyi vurğulanıb. Bütün bu illər ərzində Avropa Parlamenti tərəfindən erməni təcavüzkarlarına qarşı nəinki heç bir təzyiq edilməyib, hətta bu qurum Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq işğalçıların BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə uyğun Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmasını birmənalı şəkildə tələb etməyib. Xatırladaq ki, 1993-cü il iyulun 29-da BMT Təhlükəsizlik Şurası qəbul etdiyi 853 saylı qətnamənin 9-cu bəndində Ermənistandan Dağlıq Qarabağ ermənilərinə təkidlə tələb edib təsir göstərməyə və əvvəlki qətnamənin şərtlərinə uyğun olaraq ordusunu işğal altında olan ərazilərdən çıxarmağa çağırıb. Bununla BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ ermənilərinin məhz Ermənistandan idarə olunduğu faktını qəbul etdiyini göstərib. 1993-cü il noyabrın 11-də qəbul etdiyi 884 saylı qətnamədə BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha bəyan edib.

BMT Baş Assambleyasının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı 2006-cı il sentyabrın 7-də qəbul etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində işğal edilmiş ərazilərdə Ermənistan tərəfindən törədilən yanğınlar pislənilib. BMT Baş Assambleyasının 2008-ci il martın 14-də qəbul etdiyi eyniadlı qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edib və həlli prinsiplərini yenidən təsdiqləyib. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayıb.

Təhlükəsizlik Şurasının qətnamələrini düz 27 il saya salmayan Ermənistan qoşunlarını nəinki Azərbaycan ərazilərindən çıxardı, əksinə, işğalı davam etdirmək və daha çox torpaqlarımızı ilhaq etmək xəttini tutdu. Təəssüf ki, nə qətnamələrin müəllifi olan BMT, nə də danışıqlar prosesində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri, nə də Avropa İttifaqı işğalçı Ermənistana bədnam niyyətindən əl çəkmək üçün heç bir təzyiq göstərmədi. Əksinə, status-kvonu saxlamaq üçün bütün imkanlardan istifadə etməyə çalışdılar.

Nəhayət, Azərbaycan dövləti öz qətiyyəti ilə 2020-ci ildə Ermənistanın yeni təcavüzkar niyyəti ilə başladığı müharibə zamanı həm də BMT TŞ-nın Ermənistanın Azərbaycan torpaqlarını boşaltmasına dair məlum 4 qətnaməsinin icrasını təmin etdi.

Bu gün Avropa Parlamentinin Bakıda saxlanılan separatçı-quldurların, insanlıq əleyhinə cinayətlər törətməkdə təqsirli bilinən ünsürlərin "dərhal və qeyd-şərtsiz azad edilməsi" barədə qətnamə qəbul etməsi və burada hətta müttəhimlərə qadağan edilmiş psixotrop dərmanların yeridilməsi barədə sərsəmləmələrin yer alması ikrah doğurur. Özü də bu qətnamə o zaman qəbul edilir ki, hərbi cinayətlərdə ittiham olunan məhkumlar onlara qarşı hər hansı bir qanunsuzluğun olmadığı, zor tətbiq edilmədiyi barədə bəyanatlar verir, Ermənistanın münaqişədə birbaşa iştirakçı olduğunu, özlərinin isə Ermənistandan gələn əmrləri icra etdiklərini ifadələri ilə təsdiqləyirlər.

Bütün bunların inkarolunmaz fakt olduğunu bilə-bilə Avropa Parlamentinin belə bir üzdəniraq qərar çıxarması bu qurumun beynəlxalq hüquq normalarını heç sayaraq separatçılara və Azərbaycana qarşı təxribatlarda fəallıq göstərən şəxslərə himayədarlıq etməsi, yumşaq desək, təəssüf doğurur. Əslində, bu qətnaməni qəbul etməklə Avropa Parlamenti Azərbaycana qarşı geniş və təşkilatlanmış anti-Azərbaycan şəbəkə olduğunu bir daha təsdiq etdi.

Avropa Parlamentinin birmənalı şəkildə ölkəmizə qarşı kampaniya aparan bir quruma çevrilməsi xalqımızın haqlı olaraq hiddətinə səbəb olub.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi də Avropa Parlamentinin 2025-ci il martın 13-də qəbul etdiyi bədnam qətnaməyə etiraz edərək Avropa Parlamentinə məktub göndərib. Məktubda qeyd olunub ki, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan silahlı separatçılıq, sülh və insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və terrorçuluq da daxil olmaqla, ağır cinayətlərdə təqsirli bilinənləri məsuliyyətə cəlb etmək üçün tam qanuni hüquqa malikdir.

Məktubda qeyd edildiyi kimi, "Qətnamədə Azərbaycanın 2023-cü ildə "blokada" və "etnik təmizləmə" həyata keçirməsi barədə irəli sürülən ittihamlar diqqəti haqsızlığın əsl günahkarlarından - onilliklər ərzində Azərbaycan torpaqlarını işğal etmiş, azərbaycanlıları zorla yurdlarından qovmuş və işğal altında saxladıqları bütün şəhər və kəndləri yerlə yeksan etmiş Ermənistan silahlı qüvvələrindən yayındırmağa yönələn siyasi motivli uydurmalardan başqa bir şey deyil.

Avropa Parlamentinin "sanksiyalar", sazişlərin "dayandırılması" və diplomatik məhdudiyyətlər barədə çağırışları isə Azərbaycanın daxili işlərinə qarışmaq üçün göstərilən qəbuledilməz cəhdlərdir. Bu cür siyasi motivli hərəkətlər regionda yalnız gərginliyi artırır və davamlı sülhə nail olmaq perspektivlərini sarsıdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ermənistanda biznesə vergi terroru

### Paşinyan hökuməti o qədər borc götürüb ki, ölkə ağır maliyyə yükü altında qalıb

**Sülh müqaviləsinin imzalanmayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Ermənistanda mövcud sosial-iqtisadi problemlər həmişə olduğu kimi, bu il də ön plana çıxıb. İndi cəmiyyət hakimiyyətdən üzləşdikləri sosial çətinliklərin həllini tələb edir. Amma bunun üçün lazımi resurslar olmadığından ölkəni aksiyalar, tətillər bürüyür.**



İqtisadi vəziyyətin pisləşməsi dövlət büdcəsinə vergi gəlirlərinin azalmasına da gətirib çıxarıb. Bu o deməkdir ki, dövlət 2025-ci ildə vətəndaşların əməkhaqqı və təqaüdlərini ödəmək üçün əlavə kredit yükünün altına girməli olacaq.

Bu azmış kimi, vergilərin artırılmasından sonra kiçik və orta biznes təhlükə altına düşüb. Bu sahədə fəaliyyət göstərən bəzi sahibkarlar hüquqları uğrunda ümidsiz mübarizə apararkən, Paşinyan hakimiyyətinin özbaşınalıqları yeni çalarlar alır. Vergilər, cərimələr və peniyalar amansızcasına artırılır.

Bu fonda Ermənistan Ədliyyə Nazirliyi elə bir qanunvericilik təşəbbüsü ilə çıxış edib ki, onunla adi vergi müfəttişi əsassız müdaxilə və əsaslandırılmamış cərimələrlə istənilən vaxt, istənilən biznesi müflisləşmə həddinə gətirə bilər.

"4rd.am" nəşri yazıb ki, hazırda Ermənistanda biznesin yoxlamalar nəticəsində əlavə vergi öhdəlikləri barədə təqdim edilmiş inzibati aktı mübahisələndirdiyi təqdirdə, məhkəmə qərarına qədər təyin edilmiş öhdəlikləri ödəməmək imkanı var. Bu qanunvericilik təşəbbüsünün qəbulundan sonra isə bunu etməyə məcbur olacaq. Məhkəmənin qərarının nəticəliyini, vergi müfəttişinin öz qərarında yanılıb-yanılmadığının fərqi olmayacaq. İnzibati aktı mübahisələndirməzdən əvvəl təyin edilmiş vergi öhdəliklərinin yerinə yetirilməsi məcburi şərt olur. Yalnız bundan sonra biznes öz maraqlarını qorumaq üçün məhkəməyə müraciət edə bilər.

Bu təşəbbüsün qəbulundan sonra Ermənistanda biznes təkcə vergi müfəttişinin özbaşınalıqları ilə üzləşməyəcək və bəzən məcburi müflisləşməyə getməyəcək, bu həm də Paşinyan hakimiyyətinin əlində arzuolunmaz sahibkarları vergi məngənəsində saxlamaq və cəzalandırmaq üçün bir alətə çevriləcək.

Ermənistanda hakimiyyətin biznesi terrora məruz qoyması vergi sistemində korrupsiya risklərinin dərinləşməsinə də səbəb olacaq. Akt yazmadan əvvəl, nə qədər razı olmasalar da, sahibkarlar mümkün olan bütün vasitələrlə vergi müfəttişi ilə dil tapmağa çalışacaqlar.

Bu azmış kimi, son illər Ermənistan hökuməti o qədər borc götürüb ki, bu məsələdə fəlakətli həddə çatıb. İstər borcun kəskin artması, istərsə də qiymətlərin xeyli yüksəlməsi nəticəsində borclara xidmət çətinləşib. Ermənistan hakimiyyətinin "səyləri" ucbatından ölkə ağır maliyyə yükü altına düşüb. Məlumata görə, hər il Ermənistanın dövlət büdcəsindən borclara xidmət üçün yüz milyardlarla dram ayrılır.

Bildirilib ki, 2025-ci ildə dövlət borcunun ödənilməsi və borclara xidmət üçün 1117,1 milyard dram tələb olunacaq ki, bunun da 723,0 milyard dramı borc ödənişləri, 394,1 milyard dramı isə faiz ödənişləri olacaq.

Son 6 ildə Ermənistan hökuməti çox borc götürüb və ölkə ağır maliyyə yükü altındadır. Bu müddət ərzində Ermənistan hökumətinin borcu təxminən iki dəfə artıb. Borc üzrə faiz dərəcəsi əvvəlki 4-4,5 faizdən 7,3 faizə yüksəlib. Bu il təkcə Ermənistan hökumətinin borcunun faizlərini ödəmək üçün 394 milyard dram lazımdır ki, bu da ötən illə müqayisədə 49 milyard çoxdur.

Müqayisə üçün qeyd edək ki, Ermənistanın 2018-ci ilin dövlət büdcəsində borclara xidmət üçün cəmi 140 milyard dram ayrılmışdı. Cari il isə 394 milyard dram ayrılacaq. Paşinyanın hakimiyyətinin 6 ilində təkcə borcun faizlərinin ödənilməsi 2,8 dəfə artaraq, 140 milyard dramdan 394 milyard drama çatıb.

Bütün bunlar Ermənistanı kifayət qədər narahat günlər gözlədiyindən, ölkənin üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*





# NOVRUZ gəlir, YAZ gəlir

# Torpaq çərşənbəsi

**Bu gün Novruzun sonuncu - Torpaq çərşənbəsidir. Xalq arasında bu çərşənbə "Axır çərşənbə", "Yer çərşənbəsi", "Çərşənbə-suri" və başqa adlarla təmtəraqlı şəkildə keçirilir. Torpaq ümumtürk mənəvi-əxlaqi dəyərlər sistemində vətən, el-oba, yurd anlayışları ilə yanaşı, həm də mifik semantik sakrallığı əks etdirir. Bu çərşənbə torpağın oyanmasını, dirilməsini şərtləndirir. Mifik təsəvvürlərə görə, dörd müqəddəs varlığın sonuncusunun oyanması nəticəsində Su, Atəş, Yel bütün Yer üzünü dəyişir, insanları çətinlikdən, sıxıntı və məhrumiyyətlərdən xilas etmək üçün daha da qüvvətlənir.**



Xalq arasında mifik düşüncəni əks etdirən belə nümunələrdən birində deyilir ki, "Adamların məhrumiyyət və qıtlıqdan əziyyət çəkdikləri bir gündə Sel, Atəş, Yel Torpaq xatunun yeraltı məbədinə qonaq gəlirlər. Burada yatmış Torpaq xatunu oyadıb adamların aclıq və qıtlıq çəkdiklərini ona söyləyirlər. Torpaq xatun "Adamları fəlakətə salan özü fəlakətə düşər" deyib yerindən qalxır, Sel, Atəş, Yel və Torpaq xatun əl-ələ verib: "Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi, təzə ömür, təzə məhsul, il gəldi - deyib işıqlı dünyaya çıxırlar. Deyirlər ki, həmin gün ilin əziz günü olan Axır çərşənbə idi".





Torpaq insanın yaradılışında bilavasitə iştirak edən dörd ünsürdən biridir. Diqqətçəkən məqamlardan biri də islam dinində torpağın müqəddəsliyini göstərən təyəmmümlə bağlıdır. Təyəmmüm - su olmadıqda, su tapılmayanda torpaqla, qum və ya tozla dəstəmaz almaq deməkdir. Bu barədə "Qurani-Kərim"də "Ən Nisa" ("Qadınlar") surəsinin 43-cü ayəsində Böyük Yaradan belə buyurur: "Ey iman gətirənlər! Su tapmasanız, təmiz torpaqla təyəmmüm edin, üzünüzə və əllərinizə sürtün!" Deməli, torpaq insanın yaradılışında iştirakdan əlavə, həm də suyu əvəz edir, safdır, müqəddəsdir, insanı pak edə biləcək qüvvəyə malikdir.

Yaradılış torpaqla bağlıdır. Teoloji düzümdə insanın yaranmasında Torpaq ilkin faktor kimi göstərilir, yəni Ulu Tanrı insanı əvvəlcə torpaqdan, daha sonra istilik və sudan, ən sonda öz nəfəsini üfürməklə yaratmışdır. Novruzun yaranmasında, mərasim folklorunda isə bu düzüm bir qədər fərqlənir, yəni Su, Od, Yel birləşib Torpağı dirildir, oyadır, artıq əkin-biçinə, şumlanmağa hazır edir. Xalq rəvayətinə görə, "bir kişi hər il torpağı şumlar, əkib-biçib bol məhsul götürərmiş. Aylar, illər ötür. Zaman öz işini görür. Kişi qocalıb iş-gücdən qalır. Gözlərinin nurunu itirir. Bir gün oğlunu yanına çağırıb deyir ki, bala, şum vaxtıdı. Öküzləri hayla, xışa qoş, torpağımızı şumla. Oğul atasının sözünə əməl edir. Sabahısı gün yenə ata oğula torpağı şumlamağı tapşırır. Bu dəfə də o, öküzü, xışı götürüb torpağı şumlamağa yollanır. Üçüncü gün də ata oğluna torpağı şumlatdırır. Dördüncü dəfə ata oğluna torpağı şumlamağı tapşıranda o, "yaxşı" deyir, amma torpağı şumlamır. Fikirləşir ki, onsuz da atamın gözləri görmür, haradan biləcək mən torpağı üç dəfə, ya dörd dəfə şumlamışam... Oğlan torpağı əkib-becərir. Biçin vaxtı yetişir. O, kəhrəba kimi sarı buğdanı biçib dərzləyir. Bu vaxt oğluna deyir ki, bala, məni tarlaya apar. Oğlan atasının əlindən tutub dərzlərin yanına gətirir. Ata əlindəki əsasını qarşıya uzadır. Əsa dərzə dəyir, sol tərəfə uzadır, yenə də dərzə dəyir. Əsa sağda da dərzə toxunur. Kişi əsası ilə arxasını nə qədər axtarsa da, görür ki, boşdur. Deyir ki, ay oğul, nə üçün torpağı dörd yox, üç dəfə şumlamısan? Əgər bu işi dörd dəfə görsəydin, indi dərzlərin də sayı üç yox, dörd olardı" .

Torpağı əkib-becərmək, şumlamaq insana bərəkət gətirir. Torpaq bolluq, əmin-amanlıq, xoşbəxtlik, firavanlıq rəmzidir.

Mifik mənbəyə görə, Xızırın qardaşı, yer sahibi Zinda öküzünü itirir və onu axtarmaq üçün meşəyə yollanır. Öküzünü tapa bilməyən Zinda meşədə qar yağdığına görə qarın altında qalır. Həmin gecə boz atlı Xızır göyün doqquzuncu qatından yerə enib qardaşını axtarmağa başlayır, onu tapır və nəfəsilə qızdırır. Zinda öküzünü də axtarıb tapır, hamı Zindanın evinə gəlir. Axşam Xızır qızıldan tökülmüş kotan və boyunduruğu qardaşına verir, çərşənbələşdikdən sonra Xızır Zinda, yaxud Xızırzinda adı ilə bayram keçirib torpağı oyatmağa çalışırlar. "İnanca görə, Axır çərşənbədə Xızırzinda insanlara bərəkət paylayır, ona görə də bütün evlərdə un çuvallarının ağzını açarlar ki, paylanan bərəkətdən onlara da pay düşsün. Həmin günün özünəməxsus ayinləri vardır. Ev sahibləri heç kimlə kəlmə kəsmədən əllərini una vurub evin divarlarına, həyətdəki meyvə ağaclarının kötüyünə yavaşca balta ilə toxunub "Nə yatmısan, oyan, bərəkət payını götür" deyərdilər. Bağçadakı bar verməyən ağaca isə "kəsəcəyəm" deyib hədə-qorxu gəlirdilər, bu zaman bir başqa adam sanki Xızırzindanın dilindən belə deyirdi ki, "kəsmə, bu ağac təzə ildə bar verəcək, buna mən zamin..."

Səməni Novruzun əsas atributlarından biridir, bolluq-bərəkət, ruzi, yaşıllıq və yazın gəlişinin rəmzidir. Yunan filosofu Plutarx (bizim eranın təqribən 46-127-ci illəri) Midiyada - qədim Azərbaycanda taxılı müqəddəs bitki saymaq ənənəsinin olduğunu göstərmişdir. Bu, hər yeni ilin əvvəlində, yəni, yazda icra edilərdi. Bu, səməni göyərtmək şəklində bizim günlərə qədər gəlib çıxmışdır. Səməni insanların arzu-istəklərini həyata keçirən bir nemət kimi xalq təfəkkürünə daxil olmuşdur:

*Səməni, ay səməni,*
*Göyərdərəm mən səni.*
*Sən gələndə yaz olur,*
*Yaz olur, avaz olur...*

Novruzda səməni cücərdib qohum-əqrəbaya, qonum-qonşuya paylamaq ənənə halını almışdır. İnanca görə, əgər səməni sıx, düz bitərsə, təzə il bolluq-bərəkət ili olar, əksinə, bir az seyrək bitərsə, bu həmin ildə çətinliklərin olacağına işarə kimi qəbul edilirdi.

Azərbaycanın bəzi bölgələrində Torpaq çərşənbəsində buğdadan "səməni mayası" adlı təam hazırlanardı. Buna səməni həlimi, yaxud, maya səməni də deyərdilər. Bu səməni çəmənlikdə, yaxud pir və məscidlərin yanında bişirilərdi. Mənbələrə görə, Axır çərşənbə axşamı gecədən sübhə qədər insanlar bir yerə cəmlənər, "səməni toyu" keçirərdilər. Ağbirçək qadınlar səməni mayası bişən qablara yaxınlaşıb nəmər, yumurta və sair qoyub təzim edər, sağ əllərini üç dəfə qazanlara, sonra dodaq və alınlarına çəkərdilər ki, bu adətə "qazan ziyarəti" deyilərdi. İnanca görə, Xızırzinda gəlib səməni mayasını qəbul edəcək, ona görə də qazanların üstünə un qoyardılar ki, Xızırzindanın əlinin izi burada görünsün. Səməni mayası sübh tezdən yeyilərdi, əvvəlcə xəstə uşaqlara və övladı olmayan gəlinlərə verilərdi. İnanca görə, səməni mayası şirin, dadlı olurdusa, Xızırzinda tərəfindən qəbul edilmiş hesab edilirdi. Səməni mayasını həm də ömrü uzadan, sağlamlığa müsbət təsir göstərən "Xızırzinda çiçəyi" də adlandırırdılar.

Axır çərşənbə və Novruz süfrəsinin digər bir atributu isə yumurtadır. Mifik düşüncədə yumurta yaradılışın, həyatın rəmzini bildirir. Şərq xalqlarının, o cümlədən türk xalqlarının mifoloji təsəvvürlərində dünyanın yaranması yumurtadan çıxmış quşla əlaqələndirilir. Bu quş Altay xalqlarında müqəddəs Qaz adlandırılır. Türkdilli xalqlar arasında qartal quşların xaqanı sayılırdı. Yakutlar isə hesab edirlər ki, şamanlar qartal yumurtasından törəyib, ona görə də qartalı Tanrı hesab edirdilər.

Zərdüştilərin müqəddəs hesab etdikləri "Avesta"da da "dünya yumurtası" anlayışı mövcuddur. Yumurta dörd varlığı özündə daşıyır, ilkin təsəvvürləri əks etdirir. Yumurtanın həm quruluşu, həm də qabığı torpağın, qabığın altında olan nazik pərdəsi havanın, ağı suyun, sarısı isə odun rəmzidir. Novruz süfrəsini bəzəyən boyanmış yumurtalar ilin fəsillərini rəmzləndirir.

Novruz ilkinlik, başlanğıc bayramıdır, dünyanın yaranması ilə bağlı ayin, etiqad və mərasimləri bütün dünyada tanıtmağa imkan verir. Təsadüfi deyildir ki, keçən əsrin 80-ci illərində Azərbaycana səfər edən əcnəbi antropoloq Tur Heyerdala Qobustanda Novruz xonçası təqdim edilərkən o, öz heyrətini gizlədə bilməmiş və xonçanın önündə diz çökərək "Əcəba, bu, dünyanın bəzədilmiş simvoludur, siz nə qədim xalqsınız!" deyə bildirmişdir.

Torpaq çərşənbəsində silsilə ayin və mərasimlər yerinə yetirilərdi. İnanca görə, yerin altından "çilləxana" adlı dar yol açıb, səhər tezdən "ağırlığımı yer götürsün, mətləbimi Allah versin" deyib həmin yeraltı yoldan keçəndən sonra alma yeyilməliydi. Bu inancla insanlar öz müşküllüklərini sanki torpağa tapşırıb "ölüb yenidən dirilirdilər". Bu ritual sonralar da böyüklər tərəfindən icra olunardı, xüsusən el arasında yolunu azanları torpaqdan halallıq almaq və islah olunmaq məqsədilə həmin çilləxanalardan keçirərdilər.

Mifik qaynaqlara görə, Torpaq Çərşənbəsində "Cütçü şumu", yaxud "Əkin toyu", "Səpin toyu" adlanan böyük bir mərasim keçirilərdi. Mərasimin baş qəhrəmanı Cütçü baba, yaxud Gilbaba, Turab baba olmuşdur. Rəvayətə görə, Cütçü baba ilk dəfə insanlara taxıl əkib-biçməyi öyrətmiş hesab olunmuşdur. Bu mərasimdə Cütçü baba vəzifəsini icra etmək üçün elin hörmətli adamı seçilərdi. Səhər-səhər "Cütçü baba" mərasimi başlanmazdan əvvəl hamı hazırlaşardı. Ayinə görə, iydə, yaxud ərik ağacından düzəldilən bir cütü, qarakotanı günün altında qoyub onu qırmızı parça ilə bəzəyərdilər. Mərasimdə şum alətinin vəsfinə həsr olunmuş "Cüt gözəlləməsi" də oxunardı. Sonra bir cüt ağ öküz gətirib, ayaqlarını qırmızı parçalarla bəzəyib kotana qoşardılar. Daha sonra mərasimə Cütçü baba, yaxud Xızırzında təşrif buyurur.

Torpağın oyanmasını əks etdirən Axır çərşənbə Azərbaycanın bir çox bölgələrində Novruz bayramı ilə eyni təmtəraqla keçirilir, yəni ilaxır çərşənbə zəngin mərasim, oyun, tamaşa sistemi daxilində keçirilir. Axır çərşənbə axşamı digər çərşənbələrdən daha çox ayin icra edilir, tonqallar qalanır, kütləvi bayram məclisləri keçirilir. Həmin ayinlərdən biri də axır çərşənbə günü axşam bütün həyətlərdə tonqal qalamaqdan ibarətdir. Mənbələrə görə, tonqal üç yerdə qalanırdı. Axır çərşənbə süfrəsinin və çərşənbə xonçasının bəzədilməsi xüsusi önəm daşıyır. Məlumdur ki, Novruzun əsas şirniyyatları şəkərbura, paxlava, qoğal, şəkərçörəyi və sairdir. Novruz şirniyyatlarının hər birinin öz semantikası var, şəkərbura Ayın, qoğal Günəşin, paxlava isə ulduzların rəmzidir. Bunlar arasında ən çox növü olan paxlavadır: Bakı paxlavası, Quba paxlavası, Şəki paxlavası, Gəncə paxlavası, riştə paxlavası və sair. İlaxır çərşənbə və Novruz süfrəsində mütləq bayram plovu bişməlidir.

Axır çərşənbə axşamında bir çox rituallar icra edilərdi ki, bunların bir qismi bu gün də xalq arasında qorunub saxlanmışdır. Qulaq falı, qapı pusmaq və sair belə ayinlərdəndir. Axır çərşənbə axşamı küsülülər barışarlar. İnama görə, Axır çərşənbə gecəsində təbiətdə nə varsa, hamısı təzələnir.

Axır çərşənbə axşamı dayanıb qonşunun qapısını pusurlar. Qapıya yaxınlaşarkən eşidilən ilk sözü və ya bir neçə sözü yozub bəxt haqqında müəyyən fikirlər söyləyirlər, məsələn, ilk eşidilən sözlər "işığı yandır", "yaxşı olacaq" və sair olarsa, hər şeyin yaxşı olacağı güman edilir. Axır çərşənbə axşamı subay qızlar duzlu kökə yeyib su içmirlər. Gecə yuxuda kökə yeyənə su verən insan yuxu görənin "qismətidir" kimi qəbul olunur. Novruzda axır çərşənbə günü "iynə süzdürüb", "çillə çıxarırlar", hamı deyib-gülür şənlənir. Hər kim yatdı, onu yatdığı yerə tikirlər, sonra da üstünə su töküb, ayıldırlar və s.

Xalqımızın milli təfəkküründən folkloruna həkk olunmuş bədii mətnlərə, atalar sözlərinə, andlara, alqışlara nəzər salaq:

Torpaqdan pay olmaz.
Torpağa əyilən namərdə əyilməz.
Torpaq qızılquşdur, əldən buraxdın - uçar gedər.
Torpaqda əlləşən xoşbəxtliklə rastlaşar.
Torpaq əkinçinin zəhmətilə zinətlənər.
Torpaq deyər: - Öldür məni, dirildim səni.
Torpağa var versən, o da sənə bar verər.
Torpaq deyər: - Sən mənə tər ver, mən sənə zər verim!
Torpağa göz ağardanda üz ağardar
Torpaq kimi bərəkətli ol ki, hamının sevimlisi olasan!
Torpağa xor baxsan, o sənə kor baxar.
Torpaq ovuclayan qızıl ovuclar.
Torpaq müqəddəsdir.
Torpağın qədrini bilməyən ulaya-ulaya qalar.
Torpaqla əlləşən ac qalmaz.
Torpağı bir yerdən götürülüb.
Torpağın qarası üz ağardar.
Torpağın sirrini əli torpaqda olan bilər.
Torpaqda itki olmaz,
Kötüksüz bitki olmaz.
Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.

Torpaq haqqı!
Yer haqqı!
Torpağı sanı yaşayasan!
Torpağın həmişə gül bitirsin!
Torpağın yada qismət olmasın!
Torpağından qara yellər əsməsin!




Torpağın həmişə bar yetirsin!
Torpağın bərəkətli olsun!
Torpağına göz dikənin gözü tökülsün!
Torpağını göz bəbəyin kimi qoru!
Çərşənbə günü təzə evə köçməzlər.
Çərşənbə axşamı paltar biçmək yaxşı əlamət sayılır. O paltarı geyən dövlətli olar, - deyərlər.
Çərşənbə axşamı təzə paltar geymək uğur gətirər.
Axır çərşənbə axşamı küsülülər barışarlar.
Axır çərşənbə gecəsində nəhs danışmaq, spirtli içki içmək, nalayiq işlər tutmaq olmaz.
Axır çərşənbə gecəsində təbiətdə nə varsa, hamısı təzələnir.
Axır çərşənbə gecəsində insanın da əməli, istəyi, fikri, davranışı dəyişir.
Axır çərşənbə gecəsi ərə verilən qızları tonqalın başına dolandırar və deyərlər: - Qoy odlu-ocaqlı olsunlar!"
Od sönsə, ocaq da sönər, - deyərlər
Çaylarda, gölməçələrdə bitən ağ zanbağın gövdəsi uzanmağa başlayanda deyərlər, - qışın ömrü bitir, yaz gəlir...

Mifoloji qaynaqlardan bəhrələnən xalq ədəbiyyatı nümunələrində torpağa bağlılıq, vətən, el, yurd sevgisi bariz şəkildə əks olunmuş, arxaik ritual və mərasimlərlə, ayin - etiqadlar silsiləsində xalq təfəkkürünə həkk olunmuşdur.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru***

***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***






# Tarixi keçmişimizi, adət-ənənələrimizi özündə yaşadan müqəddəs bayram

**Xalqımızın ən müqəddəs, ən əziz bayramlarından biri də əsrlərlə yaşı olan Novruz bayramıdır. Azərbaycan xalqı bu əziz bayramını həmişə böyük ruh yüksəkliyi ilə keçirir. Novruz bayramının tarixi kökləri çox qədimlərə gedib çıxır. Həmişə olduğu kimi, dost, qardaş türk dövlətləri ilə yanaşı, Azərbaycanda da Novruz bayramı bu gün böyük coşqu və təntənə ilə qeyd olunur.**



Əsasında maraqlı xalq mərasimlərinin dayandığı Novruz bayramı hamıya sevinc gətirir, sanki dünya yenilənir. "Novruz" sözünün hərfi mənası da elə yeni gün deməkdir. Novruz bayramında fəsillər dəyişir. Qış öz yerini yaza verir. Havalar isinir, torpaq oyanır, Yer üzü yaşıllığa bürünür. Novruzun rəsmi bayram kimi keçirildiyi qədim və Orta əsrlərdə onun haqqında müxtəlif məzmunda əfsanələr, rəvayətlər söylənilmişdir. Həmin rəvayətlərin bir çoxu bu gün də dillərdən düşmür.

Araşdırmalar Novruzun yaranma tarixinin izlərini ibtidai icma quruluşuna qədər aparıb çıxarır. Bəzi mənbələr Novruzun Babilistanda eradan əvvəl 3-cü minillikdə keçirildiyi barədə məlumatların olduğunu göstərir. Novruz şimal yarımkürəsində astronomik yazın başlanğıcı-gecə ilə gündüzün bərabərliyi qovuşuğunda icra edilən ən qədim xalq bayramıdır. Novruz bayramına qədər dörd çərşənbə qeyd edilir: su, od, yel və torpaq.

### Küsülüləri barışdıran bayram

Adət-ənənəyə görə, Novruz bayramında bütün evin əşyaları havaya çıxarılıb yuyulur, təmizlənir və paklanır. İl ərzində bir-birindən küsülü olanlar barışır. Hər evdə mütləq yeməklərin şahı olan bayram aşı bişirilir. Bütün qonum-qonşular bir-birinə qonaq gedir və o nemətdən bir yerdə dadırlar. Bütün evlərdə açılan süfrələrdə bolluq, bərəkət rəmzi olan səməni qoyulur.

Etibarlı mənbələrdə Novruz bayramı haqqında bir-birindən dəyərli məlumatlara rast gəlirik. Biruni Əbu Reyhanın "Asarul Baqiye" (Pamyatniki minuvşix pokoleniy), Kaşğarlı Mahmudun "Divanü Lugat-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və başqa əsərlərini nümunə çəkə bilərik. Həmin əsərlər bu gün də böyük maraqla oxunur. Nizamülmülk "Siyasətnamə" əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq tədbirlərindən bəhs etmişdir.

Tarixi mənbələr bir daha təsdiq edir ki, qədim dövrlərdə Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda dövlət bayramı kimi qeyd olunmuşdur. Məlumatlara görə, Novruz bayramı bir ay davam edərmiş. Türkdilli xalqlar bu bolluq, bərəkət rəmzi olan əziz bayramı böyük coşqu ilə qarşılayarmış.

Biruni Əbu Reyhanın və Ömər Xəyyamın əsərlərindəki məlumatlardan öyrənirik ki, insanlar Novruzda yerə su səpər, yaxınlarına hədiyyə verər, şirniyyatlar paylayar və digər mərasimlər icra edərmişlər. Bayram günündə süfrəyə buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt və ya lobya unundan hazırlanmış çeşidli çörəklər düzərmişlər.

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunarmış, məzhəkəçilər və kəndirbazlar öz bacarıqlarını nümayiş etdirərmişlər. Bu bayramı təntənəli keçirməklə yanaşı, xəstələrə müstəsna diqqət və qayğı göstərilər, qohum və dostlara baş çəkilərmiş, yaxınlarının məzarları ziyarət olunarmış. Bütün bunlar bir daha onu göstərir ki, Novruz bayramının qarşılanma mərasimləri ümumbəşəri dəyərlərə söykənir, insanlığa xidmət edir.

### Miflərdə, əfsanələrdə yaşayan Novruz

Orta əsrlərdə yaranmış və geniş yayılmış İran əfsanələrinə görə, Novruz bayramı ilk dəfə mifik İran şahları Kəyümərs və ya Cəmşid tərəfindən tətbiq olunmuşdur. Əl Biruninin yazdığı rəvayət isə Novruzun yaranmasını Azərbaycanla bağlayır. Bu rəvayətə görə, Cəmşid Azərbaycana gələndə qızıl taxta oturur və insanlar onu öz çiyinlərində aparırlar. Günəşin şüası Cəmşidin üzərinə düşdükcə insanlar onu görür və sevincdən həmin günü bayram edirlər.

Yaranma tarixi rəvayət və miflərə qədər gedib çıxan Novruzda yazın gəlişi təntənə ilə bayram edilir. Böyük el şənlikləri keçirilir. Bu şənliklərdə müxtəlif rituallar yerinə yetirilir. Əski türklərin dini mərasim və ayinlərinin necə icra edildiyini bu və ya başqa şəkildə Çin və ərəb qaynaqları ilə yanaşı, türk dastanlarının boylarından, xalq əfsanələri və rəvayətlərindəki məlumatlardan öyrənirik.

Hər şeydən əvvəl qeyd olunmalıdır ki, Novruz insanların təbiətə bağlılığından və ona olan sevgisindən təşəkkül tapan bir bayramdır. Türk düşüncəsində təbiətdəki dəyişiklik etnosun həyatında dönüş və təzələnmə nöqtəsi kimi qiymətləndirilib. Əski türk imperatorluqları dövründə ilk bahar və son baharın rəsmi dövlət bayramları olması haqqında Çin qaynaqlarında kifayət qədər məlumatlar var. Mahmud Kaşğari "Divani lüğəti-türk" əsərində baharın gəlişini sellərin, suların çağlaması, dünyanın nəfəsinin isinməsi, çiçəklərin açılması və sairə şəklində təsvir edir.

Yaşı qədimdən qədim olan Novruzun elə adətləri olub ki, onları bu gün kimsə xatırlamır. Ata-babalarımızın mifoloji təfəkkür süzgəcindən keçən və inanc sistemini formalaşdıran adətlərdən çoxu təəssüf ki, bu gün unudulmaq üzrədir. Amma bu adətlər insanların yaddaşında unudulsa da, tarixin yaddaşında həmişəlik qalıb.

### İnsanların ümid və inam yeri

Axır çərşənbə və Novruz axşamında evin damına buğda atırlar ki, bərəkət çox olsun. Həmin günlərdə un çuvalının ağzını açıq qoyurlar ki, bərəkət paylananda bağlı qalmasın. İlaxır çərşənbədə axar suyun qabağını kəsmək olmaz. İnanclara görə, kəssən, sənə xətər toxunar. Bu da əcdadımızın suyu müqəddəs saymasına işarə edir. Bayram tonqalı yanıb qurtarandan sonra onun dövrəsinə üç cızıq çəkib deyirmişlər ki, əgər belə etməsən, sənə xətər toxunar. Evin də bərəkəti gedər. Bu da əcdadlarımızın torpaq və suya olduğu kimi, oda da müqəddəs baxmasını təsdiq edən amildir.

Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Camaat səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulayır. İnsanlar bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı qoşmaqla Novruza inamlarını ifadə ediblər. Onu da qeyd edək ki, bütün bu mərasimlər islamdan çox-çox əvvəl mövcud olmuş qədim Şərq ənənələrinin davamıdır.

Ömrü cəmi 23 ay olmuş Azərbaycan Xalq Cumhuriyyətində Novruz bayramı iki dəfə - 1919-cu və 1920-ci illərdə rəsmən təntənə ilə qeyd olunmuşdu. 1921-ci ildə "Kommunist" qəzeti yazırdı ki, Novruz münasibətilə məktəblilərə bayram sovqatları paylanıb. Həmin il teatr və klublarda konsert və tamaşalar verilib. 1925-ci ildə sovet hökuməti Novruzla əlaqədar xüsusi qərar qəbul edib. Bu qərara görə, Novruzun da başqa 6 milli və dini bayramlar kimi dövlət səviyyəsində keçirilməsi nəzərdə tutulub. Lakin Sovet hakimiyyəti yerini möhkəmlətdikcə başqa milli bayramlar kimi Novruz da mühafizəkar bolşeviklərin hücumlarına məruz qalıb. 1929-cu ildə Novruz dövlət bayramlarının siyahısından çıxarılır. 1937-ci ildə SSRİ Konstitusiyasının qəbulu ilə bütün dini və milli bayramlar qadağan edilir. 1953-cü ildə Stalinin ölümündən sonra bütün milli bayramlara "qeyri-rəsmi" icazə verilir. Daha doğrusu, həmin vaxtdan adamlar Novruzu ailə çevrəsində keçirə bilmişdilər.

1967-ci il martın 20-də Bakının qədim Qız qalası yaxınlığında el şənlikləri keçirilib. Gəlin kimi bəzədilmiş Bahar qız da şənliyə at belində gəlib. Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən sonra Novruz bayramı daha böyük ruh yüksəkliyi və təntənə ilə keçirilməyə başlanılmışdır.

2009-cu il sentyabrın 30-da Novruz bayramı UNESCO tərəfindən Qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i Beynəlxalq Novruz Günü elan edilmişdir.

### Qarabağda alovlanan Novruz tonqalları

Ümummilli Lider Heydər Əliyev bütün varlığı, qəlbi, ruhu ilə doğma xalqına, onun milli adət-ənənələrinə, əxlaqi dəyərlərinə bağlı olan böyük tarixi şəxsiyyət idi. Ulu Öndər Novruz bayramında xalqın arasında olmaqdan sonsuz qürur hissi keçirər, bu əlamətdar gün münasibətilə təşkil olunan təntənəli tədbirlərdə iştirak edərdi. Heydər Əliyev 2000-ci il martın 21-də Novruz bayramındakı çıxışında demişdir: "Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarixboyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, din bayramlarıdır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır".

Xalqımız Novruz bayramını yenə də tarixi ənənələrə uyğun olaraq davam etdirir. Bu gün insanlarımız Novruzu daha böyük sevinclə qeyd edir. Çünki beşinci ildir ki, torpaqlarımız erməni işğalından azad olunub. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edilib. Torpaqlarımız işğaldan azad olunandan sonra Prezident İlham Əliyev Novruz tonqallarını Qarabağda yandırır. Dövlət başçımız 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talış kəndində yandırdığı Novruz tonqalını növbəti dəfə 2024-cü il martın 18-də Xankəndi şəhərinin mərkəzi meydanında alovlandırdı.

Ən çox sevindirici hadisələrdən biri də odur ki, keçmiş məcburi köçkünlər doğma ocaqlarına qayıdırlar. Ata-baba yurdlarına dönən sakinlər Novruz bayramını dövlət tərəfindən yeni tikilmiş evlərində qeyd edirlər. Bu gün Novruz tonqalları Şuşada, Cəbrayılda, Zəngilanda, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda və işğaldan azad olunmuş digər şəhər və kəndlərdə yandırılır. İnsan üçün bundan böyük sevinc yoxdur. Yaxın zamanlarda bütün keçmiş məcburi köçkünlər belə sevinc dolu günlər yaşayacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



# Çiçək ətirli bahar gəlir



**Hər şeyə hakim olan zaman ayaq saxlamadan, hiss olunmadan, heç kimlə məsləhətləşmədən öz axarı ilə gəlib keçir. Ondan geriyə günlər, həftələr, aylar, illər və bir də acılı-şirinli xatirələr qalır. Zaman keçdikcə əsrləri ilmə-ilmə üyüdüb xırdalayan aylar, illər üst-üstə yığılır. Tarixin yükü yavaş-yavaş artır, ağırlaşır, qalınlaşır.**

Üst-üstə qalaqlanan illərlə bərabər, fəsillər də dəyişir. Hər dəyişən il, hər yenilənən fəsil yaşımızın üstünə yaş gətirir. Saçımıza, çöhrəmizə əl gəzdirir. İllər, fəsillər dəyişdikcə sanki dünyamız da yenilənib gözəlləşir.

Mart ayının ortalarıdır. Hərəsi bizdə bir cür xoş ovqat oyadan fəsillərin bir-birini əvəz edəcəyi günləri sayırıq. Son həftələri yağışlı, qarlı, şaxtalı və sonra da günəşli keçən qış fəslinin son günlərini yaşayırıq. Günlər arxada qaldıqca havadan çiçək ətirli, gül qoxulu baharın ılıq nəfəsi duyulur. Yurdumuza, el-obamıza yeni gün gəlir. Ruhumuz, qəlbimiz, könlümüz çağlayan bu ılıqlıq bulağında yuyulduqca yuyulur. Dünənə qədər soyuğa bürünmüş havalar içində misqal-misqal istilik hiss edərək qalın kürkünü çıxarır. Əvvəlki günlərə baxanda havada istilik duyulur. Təbiət əlini bu istilikdə qızdırır. Göy üzündən yer üzünə boylanan Günəş də əvvəlki günlərdən daha parlaq və daha gülərüz görünür.

Havalar isindikcə müharibələrdən təngə gəlmiş dünyamız silkələnib qışın soyuğu, şaxtası ilə vidalaşa-vidalaşa yaşıllığa bürünür. Həmişə şirin, dadlı, ləzzətli, rənbərəng meyvələr gətirən ağacların bir-birinə bənzəməyən irili-xırdalı budaqlarında yavaş-yavaş tumurcuqlar muncuq kimi sıralanıb düzülür. İnsanların üzü gülür, ürəyi açılır, qəlbi cuşa gəlir, sevinir. Bu anlarda sanki göylərin dərinliyindən, sonsuzluğundan yer üzünə bərəkət enir. Təbiət xoşbəxtlikdən, bəxtəvərlikdən don geyinir.

Günlər ötüb keçdikcə, dünənə çevrildikcə bahar qış üzərində təntənəli zəfər çalır. Onun xoş müjdəli zəfəri hər yerə səs salır, çiçək ətirli, gül qoxulu baharın qədəmlərinin səsi eşidilir. Onun gəlişindən dünyamız sevincə batır, yavaş-yavaş kədərdən, qəmdən uzaqlaşır.

Xoş gəlirsən, çiçək ətirli bahar! Xoş gəlirsən, gül çətirli Novruz! Xoş gəlirsən, xoş arzulu, ülvi diləkli, barlı-bərəkəli fəsil! Tez gəl, dünyamızı ağ çiçəklərə, rəngbərəng güllərə bürü! Qoy dünyamız həmişə çiçək ətirli, gül çətirli olsun! Qoy insanlar bütün ömürləri boyu bax beləcə bəxtəvər həyat yaşasınlar. Çiçək ətirli baharın qoxusunu ömürlərinin hər günündə, hər anında hiss etsinlər. Gündən-günə gözəlləşən Azərbaycanı sevsinlər, yaşadıqca yaşasınlar!

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Tbilisidə Novruz tədbiri keçirilib

**Tbilisidə Novruz bayramı münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Gürcüstandakı icma üzvləri tərəfindən təşkil olunan tədbirdə bu ölkənin parlamentinin deputatları, dövlət və hökumət rəsmiləri, Azərbaycanın Gürcüstandakı səfiri və səfirliyin əməkdaşları, Azərbaycanlı İş Adamları Birliyinin sədri və üzvləri, soydaşlarımız iştirak ediblər.**

Tədbirdə çıxış edən Gürcüstan parlamentinin vitse-spikeri Sozar Subari bildirib ki, müsəlmanların Novruz bayramı, ramazan ayı xristianların oruc tutduqları ayla üst-üstə düşüb. Onun sözlərinə görə, bu, bizim xalqlarımızın eyni harmoniya içərisində birgə həyat sürməsinin, eyni duyğuları və hissləri paylaşmasının əyani sübutudur.

Ombudsman Levan İoseliani isə deyib ki, Gürcüstan azərbaycanlıları ölkənin inkişafında fəal iştirak edirlər. Onlar həm cəmiyyətin müxtəlif sahələrində, həm də iqtisadi və mədəni həyatda mühüm rol oynayırlar.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxışında bildirib ki, Novruz bayramı həm Azərbaycanda, həm də Gürcüstanda böyük sevinclə qeyd edilir. Bu bayram hər iki ölkədə milli kimliyi, mədəniyyəti və ənənələri təbliğ edən, xalqı birləşdirən, sevgi, sülh və əmin-amanlıq diləyən bir bayramdır. Novruzun hər iki ölkədə böyük önəmi var, çünki o həm yeni ilin başlanğıcı, həm də təbiətin canlanmasının simvoludur.



Diplomat bu bayramın dünya miqyasında qeyd olunmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük rolunu xüsusi vurğulayıb. Bildirib ki, məhz Mehriban Əliyevanın səyləri nəticəsində Novruz bayramı UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib və BMT tərəfindən hər il martın 21-i Beynəlxalq Novruz Günü kimi qeyd olunur. Əlbəttə ki, bu, böyük bir nailiyyətdir.

Tədbirdə tar ifaçısı Ramin Pirməmmədov, "Ceyran" rəqs qrupu və "Bez" teatrının balaca aktyorları, tanınmış musiqiçilər çıxış ediblər.

# İğdır şəhər stadionunda bayram şənliyi təşkil ediləcək

**Martın 18-də Türkiyənin İğdır şəhərində Azərbaycan-Türkiyə qurumlarının ortaq layihəsi ilə "Can Azərbaycandan türk dünyasına bahar müjdəsi" adlı Novruz bayramı təşkil olunacaq.**




Bayram tədbiri İğdır Valiliyi, Azərbaycanın Türkiyədəki səfirliyi, Qarsdakı baş konsulluğu, Azərbaycan Mədəniyyət Mərkəzi və "Alagöz Holding" şirkətinin birgə təşkilatçılığı ilə reallaşdırılacaq.

Bayram şənliyində Azərbaycanın tanınmış sənətçilərinin çıxışı nəzərdə tutulub. Bundan başqa, tədbirdə türk dünyasının ortaq dəyəri olan Novruz bayramının xalqlarımızın adət və ənənələrini, qədim tarixi və zəngin mədəniyyətini özündə ehtiva etməsinə, habelə Novruzun incəsənətdə, ədəbiyyatda əks olunmasına dair çıxışlar, tamaşalar, təqdimatlar və musiqilər təqdim olunacaq. İğdır şəhər stadionunda keçiriləcək tədbirdə Novruz bayramının simvolu olan bayram tonqalları qalanacaq, Dədə Qorqudun, Bahar qızının və türk xalqlarının qəhrəmanlarını canlandıran obrazların, habelə Azərbaycan və Türkiyə bayraqlarını daşıyan atlıların keçidi, aşıqların çıxışları da tədbir proqramı çərçivəsində təqdim olunacaq.

Bayram tədbirində çoxsaylı rəsmi qonaqların, diplomatların, İğdır ictimaiyyətinin iştirakı planlaşdırılır.

# Sorağı əsrlərə yetəcək soyqırımı

## Quba Soyqırımı Memorial Kompleksi 31 Marta hazırlaşır

**Neçə illər öncə Quba şəhərində stadion kimi istifadə olunan ərazidə aparılan tikinti işləri zamanı kütləvi məzarlıq aşkar edilmişdir.**



Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən ərazidə 2007-ci il aprel ayının 8-dən 11-dək tədqiqat işləri aparılmış və məzarlıq 1918-ci ildə erməni quldur dəstələrinin Azərbaycan ərazisində törətdikləri soyqırımlarının əyani sübutu kimi qiymətləndirilmişdir.

Bu tarixi faktların dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamına əsasən, Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması işlərinə başlanılmışdır. Kompleksin inşası Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilmiş və o, 2013-cü il sentyabrın 18-də istifadəyə verilmişdir. Açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər.

Nazirlər Kabinetinin 29 iyul 2015-ci il tarixli sərəncamı ilə Soyqırımı Memorial Kompleksi Mədəniyyət Nazirliyinin tabeçiliyinə verildikdən sonra "Qoruq" statusu ilə fəaliyyətini davam etdirir. Hazırda Soyqırımı Memorial Kompleksi ölkəmizdə erməni vandalizminin təsirlərini özündə cəmləşdirən yeganə ideoloji mərkəz kimi tanınır. Mərkəzin əsas missiyası erməni vəhşiliklərinin reallığını olduğu kimi bəyan etmək və Azərbaycanla bağlı həqiqətləri həm yerli, həm də beynəlxalq aləmdə göstərməkdir.

Hər il 31 Mart Azərbaycanlıların Soyqırımı Günü Quba şəhərindəki bu kompleksdə geniş formatda qeyd olunur. On minlərlə vətəndaş kompleksə axın edir və həm "Xatirə abidəsi"ni, həm də burada yerləşən muzeyi ziyarət edirlər. Təkcə 2024-cü il ərzində Soyqırımı Memorial Kompleksi tərəfindən 60 yerli və 15 beynəlxalq tədbir, 3 ustad dərsi, 7 elmi konfrans, 4 seminar, 2 interaktiv proqram təşkil olunmuşdur. Keçən il, eləcə də Birinci Qarabağ müharibəsi və ondan sonrakı dövrlərdə işğal altında olmuş Azərbaycan ərazilərindəki tarixi, mədəniyyət və dini abidələrimizlə bağlı "Mədəni irsimiz dünən və bu gün" adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində bərpaolunan abidələrin məlumat və şəkillərini özündə əks etdirən sərgilər il boyu fəaliyyət göstərmiş və müxtəlif qurumlarda, o cümlədən ümumtəhsil müəssisələrində nümayiş olunmuşdur. Ümumilikdə 21 sərgini minlərlə insan ziyarət etmişdir.

Ötən il həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Soyqırımı Memorial Kompleksinin təşəbbüsü ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində fəaliyyət göstərən "yasilgelecek.az" saytında soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq bölmə yaradılmış, "yaşıl dünya"ya töhfə vermək üçün onlayn ağacəkmə kampaniyası təşkil edilmiş və aksiya çərçivəsində 880 ağac əkilmişdir. Kampaniya ilə əlaqədar olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən kompleksə təşəkkür məktubu göndərilmişdir. Bundan savayı Soyqırımı Memorial Kompleksinin Çıraqqala-Şabran Dövlət Tarix-Mədəniyyət Qoruğu ilə əməkdaşlıq əlaqələri yaradılmış və bu əməkdaşlıq çərçivəsində kompleksin muzeyində keçirilən avqust-sentyabr aylarında "Qədim Şabranın yaşayış mədəniyyəti" adlı sərgi təşkil olunmuşdur. Sərgini 3,4 min nəfər ziyarət etmişdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, keçən il kompleksin ümumilikdə 39,7 min nəfər ziyarətçisi olmuşdur. Onların 4 min 600 nəfərdən çoxu xarici ziyarətçilərdir. Fəaliyyət göstərdiyi illər ərzində isə Soyqırımı Memorial Kompleksini 200 mindən çoxu xarici turistlər olmaqla 1 milyondan çox insan ziyarət etmişdir.

Bu il erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının 107-ci ildönümüdür. Martın 31-də qeyd olunan həmin tarixlə əlaqədar Soyqırımı Memorial Kompleksində müxtəlif layihələr həyata keçirilir. Bu sırada müxtəlif dövlət qurumları ilə genişmiqyaslı tədbirlər, respublikanın bir çox təhsil müəssisələrində sərgilərin nümayişi nəzərdə tutulur. Eləcə də Şamaxı rayonunda soyqırımlarının baş verdiyi əraziləri özündə əks etdirəcək xəritə-kitabça hazırlanır. Bundan əlavə, 31 Mart Azərbaycanlıların Soyqırımı Günündə Kompleksə kütləvi ziyarət təşkil olunacaq. Ziyarət zamanı həmişə olduğu kimi, yerli və xarici vətəndaşlara Azərbaycan, rus, ingilis, ərəb və fars dillərində peşəkar bələdçilər tərəfindən 1918-ci ildə baş vermiş azərbaycanlıların soyqırımı haqqında ətraflı məlumat veriləcək. Bundan əlavə, ziyarətçilərin daha geniş məlumat alması üçün kompleksin zəngin kitabxanasından istifadə imkanı yaradılacaq. Həmçinin kompleks tərəfindən nəşr edilmiş buklet, Quba rayonunda soyqırımlarının baş verdiyi ərazilərin xəritəsini və məlumatlarını özündə əks etdirən 2 dildə nəşr edilmiş kitabça təqdim olunacaq.

Hazırda kompleksdə ilk dəfə keçiriləcək "Gənc Etnoqrafların I Forumu"na hazırlıq işləri gedir. Forumda incəsənət nümayəndələrinin yerli icmaların mədəni və mənəvi irsinə həsr olunmuş yaradıcılıq nümunələri nümayiş olunacaq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Ağ Evdən növbəti qərar

## "Amerikanın səsi" və "Azadlıq radiosu"nun maliyyəsi kəsildi

**Prezident Donald Trampın Amerika Birləşmiş Ştatlarının Qlobal Media Agentliyinin (USAGM) ləğv edilməsi haqqında sərəncamından sonra bu hökumət təşkilatına daxil olan "Amerikanın səsi" və "Azad Avropa/Azadlıq Radiosu" fəaliyyətini dayandırıb.**




Şirkətin baş direktoru Maykl Abramovitzin sözlərinə görə, "Amerikanın səsi"nin 1300-dən çox əməkdaşı məzuniyyətə göndərilib.

İşçilər üçün bu qərar gözlənilməz olub. Radiostansiyanın əməkdaşlarından biri sosial şəbəkədə yazıb: "Biz bu səhər Trampın əmrindən xəbər tutduq və demək olar ki, dərhal e-poçt bildirişləri aldıq ki, növbəti bildirişə qədər işçilər məzuniyyətə göndərilir. Bizə hətta şəxsi əşyaları götürmək üçün ofisə getməyimiz qadağan edilib, biletlərimiz ləğv edilib, iş yazışmalarına və çatlara giriş bağlanıb".

Ağ Evin internet saytında dərc edilən bəyanatda "Amerikanın səsi" "radikal təbliğatda" və "anti-Tramp məzmunu" yaymaqda günahlandırılıb. Trampın USAGM üzrə müşaviri təyin edilən K.Leyk da agentliyin fəaliyyətini kəskin tənqid edib: "Həqiqətdən güclü heç nə yoxdur. Xəbər təşkilatları bu səlahiyyətdən təbliğat aparmaq, ideologiyaları aşılamaq və Amerika maraqlarına zidd hərəkət etmək üçün sui-istifadə edirlər. İctimaiyyətin mediaya inamı sarsılıb. Bizim vəzifəmiz bu inamı bərpa etməkdir".

Qeyd olunur ki, "Amerikanın səsi" həftəlik 48 dildə 360 milyondan çox dinləyiciyə və tamaşaçıya çatır. Radiostansiya 1942-ci ildə nasist Almaniyasının təbliğatına qarşı çıxmaq üçün yaradılmışdır. "Azadlıq radiosu" 1950-ci ildən fəaliyyət göstərir, Şərqi Avropanın kommunist ölkələrində, 1953-cü ildən isə keçmiş SSRİ-də yayımlanmağa başlayıb.

İllik büdcəsi 950 milyon dollar olan USAGM "Azadlıq radiosu"nu da maliyyələşdirib.

Əslində, soyuq müharibənin bu alətləri 1992-ci il yanvarın 1-də SSRİ-nin dağılmasından, Rusiyada və ittifaq respublikalarında kapitalist inqilabının qələbəsindən sonra bağlanmalı idi.

Nəticə gözlənildiyi kimi kədərlidir. Aydın inkişaf məqsədləri və rəqabət olmadan hər iki radiostansiya onilliklər ərzində dəyişməmiş aparıcıların şəxsi təbliğat və təşviqat "sahələrinə" çevrilib. "Səslərin" rəsmi missiyası Amerika dəyərlərini bütün dünyaya yaymaqdır. Bununla belə, Amerikanın özündə demokratik hökumətdən miras qalan solçu dəyərlər sistemi ilə Tramp və onun tərəfdaşlarının ifrat sağçı dəyərləri arasında şiddətli ideoloji mübarizə gedir.

Ağ Ev "Amerikanın səsi"nə qarşı aşağıdakı iddialarla çıxış edib:

- agentliyin rəhbərliyi "çox vaxt solçu qərəzliyi əks etdirən təkəbbürlü, yaramaz bir təşkilata çevrilib". O, "jurnalist standartlarının pozulmasına və yanlış idarəetməyə" yol verir;
- "Amerikanın səsi"nin əməkdaşlarına "bəyanatlardan sitat gətirmək istisna olmaqla", HƏMAS və onun üzvlərini terrorçu adlandırmamaq əmri verilib;
- "Amerikanın səsi"nin bir çox müxbirləri qərəzsizliyi unudaraq, dəfələrlə Tramp əleyhinə şərhlər dərc ediblər;
- "Amerikanın səsi" Hanter Bayden notbuk hekayəsində "Rusiyanın Trampın xeyrinə qalmaqalın yaranmasında rol oynadığına dair iddiaları" dəstəkləyib və "Baydenlə birlikdə oyun qurub";
- "Amerikanın səsi" sığınacaq istəyən transgender əcnəbilərin ABŞ-yə miqrasiyasını dəstəkləyib və s.

Qeyd edək ki, fəaliyyəti boyu qarayaxma və feyk xəbərlər yaymaqla məşğul olan, informasiya təbliğatını erməni maraqlarına uyğun aparan bu radiolar bütün zamanlarda Azərbaycanın əleyhinə işləyiblər və xeyrimizə heç nə yaymayıblar. Azərbaycanda keçirilən istənilən seçki kampaniyası, beynəlxalq toplantı, yarış, forumlardan öncə çirkin kampniyalar həyata keçirib erməni maraqlarına xidmət ediblər.

Xatırladaq ki, amerikalı milyarder İlon Mask hələ ötən ayın əvvəlində "Azadlıq" və "Amerikanın səsi" radiolarını bağlamağa çağırıb və bildirib: "Artıq heç kim onlara qulaq asmır. Bunlar sadəcə olaraq hər il ABŞ vergi ödəyicilərinin 1 milyard dollar pulunu yeyərək öz-özünə danışan çılğın radikal solçulardır".

Gözlənildiyi kimi, psevdodemokratlar və feyk yayanlar üçün nəticə kədərli oldu...

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
№ 58 (9803) 16 mart 2025-ci il BAZAR — AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI — QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan qlobal problemlərin həllində nüfuzlu söz sahibidir
Prezident İlham ƏLİYEV: "Qafqazda öz milli maraqlarını güdən ölkə, yeni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var"
Vladimir Putin, Aleksandr Lukaşenko və Emoməli Rəhmon İlham Əliyevə zəng ediblər
"Cənub qaz dəhlizi"nin birləşdirici halqası
TANAP-ın təməlinin qoyulmasından 10 il keçir
Tranzit imkanları Azərbaycanı tezliklə dünya ticarətinə yön verən ölkəyə çevirəcək
Dayanıqlı sülh
Ermənistan Azərbaycanın şərtlərinə yalnız reallıqda əməl etdiyi halda mümkündür
Vardanyanın müdafiəsi üçün canfəşanlıq edənlərin fiaskosu
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar cəmiyyəti

ASCO-nun Dəniz Nəqliyyat Donanmasının inzibati binasının pilləkən pillələrinə və pəncərə mailliklərinə mərmərin quraşdırılması xidmətlərinin (material və işçilik daxil) satın alınması məqsədilə

**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 4 aprel 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Ürək çatışmazlığında innovativ həllər

**Ürək transplantasiyası ən ciddi ürək xəstəliklərini aradan qaldırmaq üçün həyata keçirilən cərrahi əməliyyatdır.**

O, ürək çatışmazlığının son mərhələlərində, həyat tərzi dəyişiklikləri, dərmanlar və digər müalicə üsulları müvəffəqiyyətli olmadıqda son çıxış yoludur. Təəssüf ki, transplantasiya gözləyən insanlar üçün kifayət qədər ürək yoxdur. Bir insan uyğun orqan nəqli üçün aylarla gözləməlidir. Belə xəstələrin böyük bir qismi isə həmin müddətdə dünyalarını dəyişirlər.

Orqan nəqli olunanadək xəstələr süni ürək dəstək sistemlərindən yararlanırlar. 1990-cı illərin ortalarında hazırlanan, tədricən geniş istifadə olunan süni ürək dəstək sistemləri qısamüddətli və uzunmüddətli cihazlar olaraq 2-3 həftədən bir ilədək istifadə oluna bilər. Qısamüddətli cihazlar yalnız xəstəxanalarda istifadə üçün uyğundur və intensiv terapiya monitorinqi tələb edir. Bu cihazlar ürək transplantasiyası gözləyən xəstələrdə həyati təhlükə yaradan ürək çatışmazlığının inkişaf etdiyi hallarda istifadə olunur. Uzunmüddətli cihazlar xəstənin evə buraxılmasına və sosial həyatına davam etməsinə şərait yaradır.

Tədqiqatçılar ürək çatışmazlığı zamanı yaranan donor problemini həll etmək üçün uzun illərdir səy göstərirlər. 2022-ci ildə innovativ həll axtarışında olan mütəxəssislər tarixdə ilk dəfə olaraq genetik cəhətdən dəyişdirilmiş donuz ürəyini insana nəql ediblər. ABŞ vətəndaşı olan 57 yaşlı Devid Bennet bu ürəklə cəmi iki ay yaşaya bilib. O, əməliyyatı haqqında "Ya öləcəkdim, ya da bu əməliyyatı keçirəcəkdim" deyib. Devid əməliyyatdan sonra ailəsi ilə vaxt keçirə bilib, hətta Amerika Futbol Liqasının finalına baxıb.

Təəssüf ki, orqan transplantasiyasında ən böyük maneə hiper-kəskin imtinadır. Bu zaman orqanizm köçürülmüş toxumanı o qədər yad kimi qəbul edir ki, onu məhv etmək üçün hərəkətə keçir. Orqanizmin ürəyi rədd etməməsi üçün onun geni dəyişdirilsə də, nəticə ürəkaçan olmayıb. Buna baxmayaraq, Devidin ailə üzvləri bu cür əməliyyatları "ümidlərin başlanğıcı" olduğunu qeyd edərək peşman olmadıqlarını bildiriblər.

Qısa müddət sonra Hərbi Dəniz Qüvvələrinin 58 yaşlı veteranı Lourens Fosetə də geni dəyişdirilmiş donuz ürəyi transplantasiya edilib. Foset əvvəllər keçirdiyi ürək-damar xəstəliyi və daxili qanaxma ilə bağlı ağırlaşma səbəbindən insan ürəyi transplantasiyasına yararlı olmayıb. O, əməliyyatdan sonra orqanizminin donor orqanına uyğunlaşması üçün xüsusi preparatlar qəbul etsə də, cəmi 6 həftə yaşaya bilib.

Ötən həftələrdə ürək transplantasiyasında inqilabi yeniliyə imza atılıb. Avstraliyada ilk dəfə olaraq titandan hazırlanmış süni ürəklə yaşayan xəstə evə buraxılıb. 40 yaşlı avstraliyalı kişi "BiVACOR" adlı cihazla üç aydan çox yaşadıqdan sonra ona donor ürək transplantasiyası edilib. Bu süni ürək donor çatışmazlığı səbəbindən transplantasiya gözləyən ürək çatışmazlığı xəstələri üçün müvəqqəti həll kimi istifadə edilir.

Sidneydəki Müqəddəs Vinsent Xəstəxanasında aparılan əməliyyat uğurla nəticələnib və xəstənin vəziyyətinin yaxşılaşdığı bildirilib. Donor tapılana qədər xəstələri həyatda saxlamaq üçün körpü rolunu oynayan "BiVACOR" mühəndis Daniel Timms tərəfindən hazırlanıb. Bu süni ürək ənənəvi ürək cihazlarından fərqli olaraq, fasiləsiz qan dövranını təmin edən maqnitli rotor texnologiyası ilə çalışır.

Tədqiqatçılar cihazın gələcəkdə donor ürəyi üçün uyğun olmayan bəzi xəstələrdə daimi alternativ ola biləcəyini irəli sürsələr də, bunun üçün əlavə klinik sınaqlar tələb olunur. Mütəxəssislər innovativ texnologiyanın ürək xəstəliklərinin müalicəsində yeni perspektivlər açacağını bildirirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Əməkdar jurnalist Cavid Xaspoladova anası

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi xidmətin idarə heyətinin sədr müavini Elçin Məmmədova əzizi

**İSMAYIL QURBAN OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin Rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Tədris Şöbəsinin müdiri Ərəstun Məmmədova əzizi

**ZİRƏDDİN ZÜLFÜQAR OĞLU RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Kamil Zeynalova atası

**ƏLİZEYNAL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Umud Rəhimoğlu, Fazil Allahverdiyev, İlham və Tural İbrahimovlar, Rafiq və Hacı Müşfiq Hüseynovlar, Əlövsət Əliyev, Hidayət, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı Səfirliyinin müşaviri Vüqar İbrahimova əzizi

**ADİLƏ HÜSEYN QIZI ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Xarici aktivlərin idarəedilməsi departamentinin baş mütəxəssisi Sərxan İsmayılova bacısı

**ZƏRƏFŞAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Umud Rəhimoğlu, Fazil Allahverdiyev, İlham və Tural İbrahimovlar, Rafiq və Hacı Müşfiq Hüseynovlar, Əlövsət Əliyev, Hidayət, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bərdə Regional Ədliyyə İdarəsinin rəis müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ HÜSEYN QIZI ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3517
Sifariş 608

Qiyməti 60 qəpik